

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 20 (862) ■ 31 may 2017 www.vergiler.az Qiyməti: 60 qəp.

# 28 May – xalqımızın milli mənlik şüurunun dirçəliş tarixi

**Mayın 26-da «Buta» sarayında Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qəbulda iştirak ediblər.**



Rəsmi qəbulda geniş nitq söyləyən dövlətimizin başçısı doxsan doqquz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq Azərbaycanda demokratik respublika yaradıldığını və bunu dünya miqyasında tarixi hadisə kimi qiymətləndirib. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan dövləti və xalqı Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə, onun qurucularının xatirəsinə böyük hörmətlə yanaşır: «Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini qeyd etmək üçün bu yaxınlarda mənim tərəfimdən sərəncam imzalanmışdır. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. İki ildən sonra müstəqilliyimiz əlimizdən alınmışdır. Əgər Azərbaycan dövlət müstəqilliyini qoruya bilsəydi, əminəm ki, bu gün respublikamız dünya miqyasında ən inkişaf etmiş, ən zəngin ölkələrdən biri olacaqdı. Ancaq xarici müdaxilə nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Ondan sonra 70 il Azərbaycan xalqı Sovet İttifaqının tərkibində yaşayırdı. Baxmayaraq ki, müstəqil deyildik, Azərbaycan xalqı inkişaf edirdi. Xüsusilə 1970-1980-ci illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf etmişdir, həm iqtisadi, həm sosial sahədə böyük uğurlar qazanmışdır. 1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmuşdur».

Dövlətimizin başçısı qeyd edib ki, müstəqilliyimizi bərpa etdikdən sonra Azərbaycan üçün yenə də böyük təhlükələr yaranmışdı: «Əslində, müstəqilliyimizin ilk iki ili formal xarakter daşıyırdı. Çünki Azərbaycan öz müstəqil siyasətini tam miqyasda apara bilmirdi. Bundan əlavə, ölkəmizdə yaşanan siyasi, iqtisadi, hərbi böhran, torpaqlarımızın işğal altına düşməsi, ovaxtkı hakimiyyət tərəfindən vətəndaş müharibəsinin başlanması, əlbəttə, gənc dövlətimizi uçurum kənarına qoymuşdu. 1993-cü ildə Azərbaycan yenə də böyük təhlükə ilə üz-üzə qalmışdı. Azərbaycan xalqının müdrikliyi ölkəmizi, dövlətimizi bu bəladan xilas etdi. Azərbaycan xalqı müdriklik göstərərək böyük lideri - Heydər Əliyevi hakimiyyətə dəvət etdi. 1993-cü ildən sonra Azərbaycanda inkişaf dövrü başlamışdır və bu gün də bu dövr davam edir. Bütün xoşagəlməz hallara, vətəndaş müharibəsinə son qoyuldu, qeyri-qanuni silahlı birləşmələr tərksilah edildi. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil Azərbaycanın Konstitusiyası qəbul edildi, ölkəyə böyük həcmdə xarici sərmayə gəlməyə başladı. Azərbaycan beynəlxalq təcriddən, informasiya blokadasından çıxa bildi. Bir sözlə, 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan inkişaf yolu ilə gedir».

Azərbaycan Prezidenti bildirib ki, 1993-cü ildən başlayaraq Azərbaycan inkişaf edib, güclənib, dünyada möhkəm mövqelərə sahib olub. İqtisadi sahədə, sosial sahədə, bütün başqa sahələrdə Azərbaycan böyük uğurlara imza atıb və bu gün bütün dünya bunu bilir və qəbul edir. Bu gün Azərbaycan bir çox ölkələr üçün nümunədir: «Biz gələcək illərdə də müsbət dinamikanı saxlamalıyıq və əminəm ki, saxlayacağıq. Daxili siyasətə gəldikdə, ilk növbədə, Azərbaycanda bundan sonra da təhlükəsizlik təmin edilməlidir. Deyə bilərəm ki, Azərbaycanda daxili risk mənbələri mövcud deyil. Mümkün olan risklər xaricdə formalaşır. Belə olan halda, biz ölkəmizi bundan sonra da xarici risklərdən qorumalıyıq, həm fiziki nöqteyi-nəzərdən, eyni zamanda, düzgün siyasət aparmaqla. Biz sərhəd mühafizəsini kifayət qədər gücləndirmişik və bu istiqamətdə əlavə addımlar atılacaqdır. Eyni zamanda, Azərbaycan bizə sərf etməyən, şübhə doğuran heç bir beynəlxalq hərəkətlərə, avantürалara qoşulmur. Baxmayaraq ki, müxtəlif tərəflər bizi müntəzəm olaraq bu hərəkətlərə cəlb etməyə çalışırdılar. Bu gün də belə səylər var. Ancaq Azərbaycan bizə sərf etməyən heç bir hərəkətə, təşəbbüsə qoşulmur və qoşulmayacaq».

Azərbaycanda insan hüquqlarının ən yüksək səviyyədə təmin olunduğunu deyən dövlətimizin başçısı qeyd edib ki, bütün fundamental azadlıqlar ölkəmizdə bundan sonra da təmin ediləcək və xalqımız əmin-amanlıq şəraitində yaşayacaqdır: «Azərbaycanda bundan sonra da millətlərarası, dinlərarası münasibətlər ən yüksək səviyyədə öz həllini tapacaq. Biz indi bir çox ölkələr üçün nümunəyik. Bunu artıq heç kim gizlətmir. Nəinki ölkəmizdə keçirilmiş beynəlxalq tədbirlər, eyni zamanda Azərbaycanda mövcud olan vəziyyət bir çox ölkələr üçün nümunədir. Həmkarlarım və təmasda olduğum xarici qonaqlar bunun sirrini öyrənmək üçün mənə dəfələrlə suallar verirdilər. Bunun sirri çox sadədir. Sadəcə olaraq, düzgün siyasət aparılmalıdır, inkişaf olmalıdır, savadlılıq artmalıdır, milli və dini siyasət düzgün aparılmalıdır. Azərbaycanda yaşayan bütün xalqların, bütün dinlərin nümayəndələri özlərini rahat hiss etməlidirlər. Bu gün bu vəziyyət reallıqdır. Azərbaycanda bütün xalqların nümayəndələri bir ailə kimi, mehribanlıq, sülh, qarşılıqlı anlaşma şəraitində yaşayırlar. Bu da bizim böyük sərvətimizdir, gücümüzdür və biz bunu qoruyuruq, qorumalıyıq».

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə diqqət çəkərək bu istiqamətdə ölkəmizin prinsipial mövqeyində heç bir dəyişiklik olmayacağını bəyan edib: «Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Bu gün də belədir, sabah da belə olacaqdır. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun ölkələrin ərazi bütövlüyü çərçivəsində, Helsinki Yekun Aktının qərarlarına uyğun şəkildə öz həllini tapmalıdır. Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim tarixi torpağımızda ikinci qondarma erməni dövləti yaradılsın. Elə mövcud olan erməni dövləti bizim torpağımızda yaradılıbdır. Biz yaxşı bilirik ki, 1918-ci ildə İrəvan Ermənistana hədiyyə kimi verilmişdir. Ona görə, torpağımızda ikinci qondarma erməni dövlətinin yaradılması mümkün deyil. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir, işğalçı qüvvələr torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmalıdır. Beynəlxalq təşkilatların qərar və qətnamələri bizi qane edir. Bu, münaqişənin həlli üçün hüquqi əsasdır. Eyni zamanda, son müddət ərzində səslənən bəyanatlar və atılan addımlar da yüksək qiymətləndirilməlidir. Xüsusilə həm Minsk qrupuna həmsədrlik edən ölkələr, həm Avropa İttifaqı, digər qurumlar artıq birmənalı şəkildə deyirlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Düzdür, hələ ki, bu bəyanatlardan sonra heç bir addım atılmır. Gözləyirik ki, bu addım da atılacaq və işğalçıya təzyiq göstəriləcək. Onlara qarşı sanksiya tətbiq olunacaq və mütləq olmalıdır».

Rəsmi qəbul konsert proqramı ilə davam edib.

# «Bakı Ürək Günləri» V Beynəlxalq Konqresinin iştirakçılarına

**Hörmətli konqres iştirakçıları!**

Sizi - Azərbaycan kardioloqlarını və müxtəlif ölkələrdən Bakıya gəlmiş alimləri səmimi qəlbdən salamlayır, hər birinizə insanların sağlamlığı naminə nəcib fəaliyyətinizdə nailiyyətlər arzulayıram.

«Bakı Ürək Günləri» Beynəlxalq Konqresinin təşkilinin artıq ənənəvi şəkil alması onun kardiologiya və ürək-damar cərrahiyyəsinin inkişafı sahəsində nüfuz qazandığını göstərir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunan konqresinizin işində dünyanın müxtəlif mötəbər tibb mərkəzlərini, o cümlədən ABŞ-ın Klivlend Klinikasını, Almaniyanın Berlin Ürək Mərkəzini, Türkiyə, Rusiya, İsveçrə, Avstriya və digər ölkələrin tibb müəssisələrini təmsil edən 400-ə yaxın kardioloq alim və cərrahın iştirakı təqdirə layiqdir.

Yaxşı məlumdur ki, kardioloji xəstəliklər müasir dövrdə insanların ən çox məruz qaldığı xəstəliklərdəndir. Dünyanın nüfuzlu kardioloji mərkəzlərində aparılan ən çətin əməliyyatların hazırda ölkəmizdə yeni nəsil kardioloqların fəaliyyəti sayəsində uğurla həyata keçirilməsi fərəh doğurur. Beynəlxalq təcrübədən qarşılıqlı surətdə lazımınca faydalanmaqla kardiologiyanın aktual problemlərinin həllinə yönəlmiş birgə səylərinizin gözəl bəhrə verəcəyinə inanıram.

Sevindirici haldır ki, Azərbaycan səhiyyəsinin bugünkü vəziyyəti təbabətin sürətlə inkişaf edən sahələrindən biri kimi kardiologiya elminin ən son nailiyyətlərinin tətbiqinə, ürək xəstəliklərinin müasir terapevtik və cərrahi üsullarla müalicəsinin təmin olunmasına əlverişli şərait yaradır.

Ölkəmizdə gerçəkləşdirilən bir çox tədbirlər, xüsusilə əhalinin müntəzəm dispanserizasiyası, sağlam həyat tərzinin təbliği, idmanın və bədən tərbiyəsinin geniş vüsət alması kardioloji xəstəliklərin profilaktikasına xidmət edir. Builki konqresinizin böyük müvəffəqiyyətlə başa çatmış IV İslam Həmrəyliyi Oyunlarının ardınca keçirilməsi idman və təbabət arasında bağlılıq baxımından rəmzi məna daşıyır. Son illər Azərbaycanda mütəmadi təşkil olunan beynəlxalq səviyyəli mötəbər tədbirlər müxtəlif ölkələrdən gələn qonaqlara dünyanın ən gözəl şəhərlərindən birinə çevrilmiş Bakı ilə, xalqımızın mədəniyyət, elm və iqtisadiyyatda nail olduğu parlaq nəticələrlə tanışlıq imkanı yaratmışdır. Əminəm ki, siz də doğma vətəninizə xalqımız və şəhərimiz haqqında aldığınız xoş təəssüratlarla dönəcəksiniz.

Ümidvaram ki, yüksək elmi və elmi-təcrübi əhəmiyyətə malik bu konqres azərbaycanlı mütəxəssislərin öz xarici həmkarları ilə əməkdaşlıq əlaqələrini daha da genişləndirəcək və tibb elminin inkişafına layiqli töhfəsini verəcəkdir.

Ən səmimi arzularla,

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 26 may 2017-ci il.

# Əməkdaşlığın perspektivləri müzakirə edilib

Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Statoil» şirkətinin beynəlxalq inkişaf və istehsal üzrə icraçı vitse-prezidenti Lars Kristian Baxerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüş zamanı Lars Kristian Baxer Respublika Günü münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb. Bakıda keçiriləcək Beynəlxalq Xəzər Neft və Qaz sərgisinin önəmini qeyd edən qonaq təmsil etdiyi şirkətin nümayəndə heyətinin bu tədbiri səbirsizliklə gözlədiyini deyib.

Görüşdə Azərbaycan ilə «Statoil» şirkəti arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Bir kərə yüksələn bayraq...

Mayın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni ziyarət edib. Dövlətimizin başçısı abidənin önünə əklil qoyub, Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.



1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın tarixinə şanlı hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika qurmağı qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarıb və müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirib. Doxsan doqquz il əvvəl - mayın 28-də qəbul edilmiş «İstiqlal Bəyannaməsi»ndən - «Əqdnamə»dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirib.

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarıb. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görüb, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar edib. Ulu öndərin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti sürətli inkişaf yoluna qədəm qoyub. Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonunda yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoyub. Xalqımız Cümhuriyyəti yarandığı bu şərəfli tarixi 28 May Respublika Günü kimi bayram edir.

Gələn il xalqımız Şərqdə ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyini keçirəcək. Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi haqqında mayın 16-da imzaladığı sərəncama əsasən, yubiley respublikamızda dövlət səviyyəsində geniş qeyd ediləcək.

## BU NÖMRƏMİZDƏ

MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN YENİ YAŞAYIŞ KOMPLEKSİ 2

VERGİ ORQANINDA İŞLƏMƏK FƏRQLİ MƏSULİYYƏT, SƏRİŞTƏ VƏ ƏZMKARLIQ TƏLƏB EDİR 3

AZƏRBAYCANIN TƏQDİM ETDİYİ LAYİHƏ «ÇEMPİONLAR» SIRASINDA... 4

VERGİ YÜKÜNÜN OPTİMALLAŞDIRILMASI İQTİSADİYYATIN TƏRƏQQİSİNƏ XİDMƏT EDİR 5

# Məcburi köçkünlər üçün yeni yaşayış kompleksi

Mayın 30-da Bakı şəhərinin Qaradağ rayonunda məcburi köçkünlər üçün yaşayış kompleksinin təməlqoyma mərasimi keçirilib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva mərasimdə iştirak edib. Məlumat verilib ki, yaşayış kompleksinin tikinti layihəsi üzrə hər biri 2 bloklu, 9 mərtəbəli 11 yaşayış binasının inşası nəzərdə tutulub. Yaşayış binalarında ümumilikdə 1026 mənzil olacaq. Binalardakı mənzillərin ümumu sahəsi 73 min kvadratmetrdir. Mənzillər 1, 2, 3 və 4 otaqdan ibarət olacaq. Bütün mənzillər təmir edilərək və mətbəx mebeli ilə təchiz olunaraq istifadəyə veriləcək. Yeni yaşayış kompleksində hazırda qəzalı binalarda məskunlaşmış 1026 məcburi köçkün ailəsi mənzillə təmin olunacaq. Yaşayış kompleksinə, həmçinin 624 şagird yerlik üçmərtəbəli məktəb binası və 220 yerlik uşaq bağçası, tibb məntəqəsi daxildir. Ərazidə istirahət parkı salınacaq, uşaq meydançaları yaradılacaq.

Mehriban Əliyevanın təməlini qoyduğu yaşayış kompleksinin 2018-ci ilin aprel ayında təhvil verilməsi nəzərdə tutulub. Kompleksin yerləşdiyi əraziyə yeni yol da salınacaq. Azərbaycanın Birinci vitse-prezidenti məcburi köçkünlər üçün yaşayış kompleksinin təməlqoyma mərasimində çıxış edərək bildirib ki, 1 milyondan artıq azərbaycanlı 20 ildən çoxdur Ermənistanın hərbi təcavüzündən və işğalından əziyyət çəkir. Xanım Mehriban Əliyeva soydaşlarımızın üzləşdiyi problemlərin Azərbaycan dövlətinin diqqət mərkəzində olduğunu, müstəqilliyimizin ilk illərindən bu istiqamətdə həyata keçirilən tədbirlərin dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil etdiyini, doğma torpaqlarından didərgin düşmüş soydaşlarımızın yaşayış şəraitinin yaxşılaşdırılması üçün 2004-cü ildə Dövlət Proqramının qəbul edildiyini, 2007-ci və 2011-ci illərdə bu Proqrama əlavələrin təsdiqləndiyini diqqətə çatdırıb. Qeyd edilib ki, bu istiqamətdə həyata keçirilən tədbirlərin icrasına ümumilikdə 6 milyard manatdan çox vəsait ayrılıb. Çadır şəhərciyi şəraitində yaşayan insanlar, qaçqın və məcburi köçkün ailələri onlar üçün inşa olunan 100-dək müasir yaşayış qəsəbəsinə köçürülüblər. Ümumilikdə bu, 50 min ailənin, 250 mindən çox insanın yaşayış şəraitinin yaxşılaşdırılması, yeni mənzillə təmin olunması deməkdir. Mehriban Əliyeva deyib: «Son 13 ildə 400 mindən çox qaçqın və məcburi köçkün yeni iş yeri ilə təmin olunub. Hər bir qəsəbədə məktəblər, uşaq bağçaları salınır. Ali və orta ixtisas təhsil ocaqlarında ödənişli formada təhsil alan qaçqınlar və məcburi köçkünlər təhsil haqqını ödəməkdən azad olunublar».

Mehriban Əliyeva bildirib ki, Bakı və Sumqayıt şəhərlərində yararsız, qəzalı vəziyyətdə olan binalarda hələ də minlərlə insan yaşayır. Mart ayında bu problemə həsr olunmuş müşavirədə birinci mərhələdə ən qəzalı binalarda yaşayan 4 min ailənin köçürülməsi üçün tədbirlər planının hazırlanması tapşırığı verilib. Hazırda bu plana uyğun olaraq Abşeron rayonunun Masazır qəsəbəsində üç bina, Sabunçu rayonunun Ramana qəsəbəsində bir bina, Sumqayıt şəhərində beş bina inşa edilir, digər beş binanın inşası üçünsə yer ayrılıb.

«Bu gün təməli qoyulan müasir yaşayış kompleksi ölkəmizdə iqtisadiyyatın özəl sektorunun bu nəcib işə töhfəsidir. Hesab edirəm çox gözəl bir haldır ki, dövlətlə yanaşı, iş adamları, sahibkarlar da bu məsələyə dəstəyini verməyə hazırdırlar», - deyən Mehriban Əliyeva Azərbaycanda fəaliyyət göstərən digər şirkətləri, sahibkarları da bu təşəbbüsü dəstəkləməyə dəvət edib. Bildirib ki, bu, Azərbaycan xalqına xas olan xeyriyyəçilik ənənələrinin davamıdır, eyni zamanda, xalqımızın həmrəyliyinin, dövlətimizin gücünün və inkişafının təzahürüdür. Mehriban Əliyeva Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə öz ədalətli həllini tapacağına və soydaşlarımızın doğma torpaqlarına qayıdacağına əminliyini ifadə edərək, işğaldan azad olan torpaqlarda Azərbaycan dövlətinin bütün lazımi infrastrukturu quracağını, şəhərlərimizi bərpa edəcəyini bildirib.

Birinci vitse-prezident Mehriban Əliyeva mübarək Ramazan ayının başlanması münasibətilə təbriklərini çatdırıb, Azərbaycan xalqına sülh və əmin-amanlıq arzulayıb.

# Qeyri-hökumət təşkilatlarının üzvləri ilə görüş



Açıq Hökumət Platformasının üzvləri, qeyri-hökumət təşkilatları və digər vətəndaş cəmiyyətiinstitutlarının nümayəndələri ilə keçirilmiş görüşdə Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva vergi orqanlarında aparılmış islahatlar və Vergi Məcəlləsində edilmiş dəyişikliklər barədə məlumat verib. Bildirilib ki, dəyişikliklərin əsas məqsədi sahibkarlığın, xüsusilə kiçik və orta biznesin inkişafına əlverişli şəraitin yaradılması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın səviyyəsinin daha da yüksəldilməsi, nağdsız əməliyyatların həcminin çoxaldılması, vergi mühtinin cəlbediciliyinin artırılması ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi və şəffaf uçotun qurulmasıdır.

Görüşdə «Nağdsız hesablaşmalar haqqında» Qanun və müvafiq olaraq bununla bağlı Vergi Məcəlləsində edilmiş əlavə və dəyişikliklərə də toxunulub. S.Musayeva dəyişikliklərin bütövlükdə ölkədə nağdsız əməliyyatların həcminin artması ilə yanaşı, pul dövriyyəsinin tənzimlənməsi, büdcə vəsaitlərinin xərclənməsində şəffaflığın təmin edilməsi, əməkhaqlarının və digər ödənişlərin leqallaşması və nəticədə ölkənin beynəlxalq reytinqinin daha da artırılması məqsədi daşıdığını bildirib.

Qeyd edilib ki, müasir dövrün tələblərindən irəli gələrək maliyyə bazarının inkişafı, iqtisadiyyata investisiya qoyuluşu imkanlarının genişləndirilməsi, vahid elektron ödəniş məkanının formalaşdırılması və ölkədə nağd pul dövriyyəsinin məhdudlaşdırılması ilə əlaqədar müasir elektron ödəniş xidmətlərinin təkmilləşdirilməsi, nağdsız ödənişlərin stimullaşdırılması tədbirlərinin ardıcıl olaraq davam etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu tədbirlər təsərrüfat subyektlərində maliyyə intizamının gücləndirilməsinə, korporativ sektorda şəffaflığın artırılmasına, müşahidə oluna bilməyən iqtisadiyyatın (gizli iqtisadiyyatın) həcminin azaldılmasına, o cümlədən vergidən yayınma hallarının aradan qaldırılmasına xidmət edir.Nağd ödənişlərin məhdudlaşdırılması ilə əlaqədar müddəaların dünyanın qabaqcıl dövlətlərinin qanunvericiliyində də əks olunması görüş iştirakçılarının nəzərinə çatdırılıb. Qeyd olunub ki, nəzarətdən kənarda qalan iqtisadi əməliyyatlar bir tərəfdən dövlət büdcəsinə vergi daxilolmalarının azalmasına, digər tərəfdən isə dövlətin iqtisadi tənzimləmə üsullarının effektivliyinin aşağı düşməsinə səbəb olur.

«Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri»ndə müəyyən olunmuş hədəflər, bu sənədlərdə Vergilər Nazirliyinin fəaliyyəti ilə bağlı müəyyənləşdirilmiş istiqamətlər barədəqeyd olunub ki, nazirliyin əsas icraçı olduğu istiqamətlər əlverişli biznes mühitinin inkişaf etdirilməsi məqsədilə səmərəli vergi sisteminin təşviq edilməsi, kiçik və orta sahibkarlıq subyektlərində aparılan yoxlamaların optimallaşdırılması və onların risk dərəcələri əsasında aparılması, bu sahədə stimullaşdırıcı vergi islahatlarının davam etdirilməsi, kənd təsərrufatı məhsullarının daxili bazarda ticarəti üzrə uçot göstəricilərinin tənzimləmə sisteminin hüquqi əsaslarının təkmilləşdirilməsi ilə bağlıdır.

Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının koordinatoru Əliməmməd Nuriyev vergi sistemində aparılan islahatların vətəndaş cəmiyyəti qurumlarının nümayəndələri tərəfindən daim diqqətdə saxlanıldığını vurğulayıb. Bildirilib ki, son zamanlar vergi sistemində aparılan islahatların həyata keçirilməsində vətəndaş cəmiyyətinin iştirakı mühümdür. İqtisadiyyatın aparıcı qüvvəsi olan vergi siyasətinin təkmil şəkildə formalaşması üçün Vergilər Nazirliyinin apardığı siyasət və bu siyasətin tərkib hissələrindən biri olan ictimai qurumlarla əməkdaşlıq qeyri-hökumət təşkilatlarının nümayəndələri tərəfindən yüksək qiymətləndirilir.

Görüşdə iştırakçıları maraqlandıran müxtəlif məsələlər barədə müzakirələr aparılıb və ortaya çıxansuallar cavablandırılıb.

# Birinci Bakı Ticarət (Şopinq) Festivalı: nəticələr, gözləntilər...

## Ötən həftə «Bulvar hotel»də festivalın yekunlarına həsr olunmuş tədbir keçirilib

Tədbiri giriş sözü ilə açan ***mədəniyyət və turizm naziri Əbülfəs Qarayev*** bildirib ki, ölkəmizdə və keçmiş MDB məkanında ilk dəfə təşkil edilən bu festivalın keçirilməsi ilk növbədə iqtisadi amillərlə bağlıdır: «Festivalın keçirilməsinə dövlət büdcəsindən 700 min manat xərclənib, ümumi büdcə isə 1 milyon manatı adlamayıb».

Qeyd edilib ki, festivalın marketinqi, dünya mediasında işıqlandırılması və təbliğatı sahəsində mühüm işlər görülüb. Azərbaycan da daxil olmaqla, ümumilikdə 54 ölkədə TV, radio, mətbuat, onlayn media, sosial şəbəkələr və internet televiziyası vasitəsilə bununla bağlı informasiyalar yayılıb.

Festival yerli sahibkarlığın, turizm və ticarətin inkişafı baxımından effektiv olmaqla yanaşı, Azərbaycan vətəndaşlarının da əcnəbi turistlərə şamil edilən ƏDV-nin qaytarılması sistemindən yararlanmasına şərait yaradıb: «Festival müddətində əldə edilən nəticələr uğurludur. Aprel ayı ərzində ölkəmizə 187.577 turist gəlib. 15 hədəf ölkə üzrə keçən ilin müvafiq dövrünə nisbətən 23 faiz artım var. May ayının ilk 10 gündə isə 70.776 turist gəlib və 15 hədəf ölkə üzrə keçən ilin müvafiq dövrünə nisbətən 32 faiz artım olub. Festival müddətində 205 mağaza iştirakçı kimi qeydiyyatdan keçib və onlardan 172-si ƏDV-nin qaytarılması proqramına qoşulub. Festival çərçivəsində 22.112 elektron vergi hesab-fakturası tərtib olunmuş, onlardan 20.853-ü ƏDV köşklərində təsdiq edilərək, müvəkkil banklar tərəfindən 19.891 hesab faktura üzrə 1.533.005,7 manat vəsait alıcılara qaytarılmışdır. Alıcılar 30-70 faiz arası endirimlərdən və satış kampaniyalarından faydalanıblar».

Bildirilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin aprelində premium geyim və aksesuarlar mağazalarında 15 faizədək, kütləvi geyim brendlərinin satışını həyata keçirən mağazalarda 46 faizədək, elektronika və məişət avadanlıqlarının satışını həyata keçirən mağzalarda 200 faizədək satış həcminin artması qeydə alınıb.

Növbəti festivalın keçirilməsinin ilin sonuna nəzərdə tutulduğunu deyən Ə.Qarayev diqqətə çatdırıb ki, artıq bu gündən etibarən hazırlığa başlanılacaq: «Növbəti festivala 500-ə qədər ticarət obyektinin qoşulmasına çalışacağıq. 500 obyektimiz olsa, daha çeşidli mallar üzərində ƏDV-nin qaytarılması mümkün olacaq».

Tədbirdə iştirak edən ***vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov*** qeyd edib ki, ƏDV-nin qaytarılması prosedurunu təmin etmək Vergilər Nazirliyinə həvalə olunmuşdu və bu iş yetərincə uğurlu icra edilib: «Vaxtın azlığına baxmayaraq, qısa zaman kəsiyində proqram təminatı hazırlandı. Bu, kifayət qədər mürəkkəb və vaxt tələb edən ciddi bir məsələdir. Çünki hər şey son nəticədə həmin proqram təminatına bağlıdır. Bundan əlavə, sistemə qoşulmaq arzusunda olan bankların nümayəndələri ilə dəfələrlə görüşlər keçirdik, onlarla birlikdə məsləhətləşmələr apardıq, eyni zamanda ƏDV köşklərini yaratdıq və nəticə etibarilə festivalın açılış gününə qədər bütün hazırlıq işlərini başa çatdıra bildik. Festival başlanandan sonra ƏDV köşklərinin hər birinə ayrı-ayrılıqda baxış keçirdik və hər hansı problemlə rastlaşmadıq».

S.Ələkbərov bildirib ki, nə təşkilatçılara, nə də Vergilər Nazirliyinə ƏDV köşklərinin fəaliyyəti ilə bağlı heç bir narazılıq, şikayət daxil olmayıb: «Bu da işin düzgün qurulduğunu göstərir. Növbəti festival zamanı tək banklar deyil, onların bankomatlarının da ƏDV-nin qaytarılması sisteminə qoşulacağı nəzərdə tutulur. Yəni alıcı banka getmədən həmin bankın bankomatından ona verilən kodu daxil etməklə öz vəsaitini əldə edə biləcək. Bu da alıcıların rahatlığına səbəb olacaq».

***Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Fiduma Hüseynova*** çıxışında bildirib ki, ölkəmizdə həyata keçirilən bu əhəmiyyətli və perspektivli layihə turizmin inkişafı, oxşar festivalların təşkil olunduğu şəhərlərlə rəqabətdə davamlılıq, dövlətlə özəl sektor arasında tərəfdaşlıq, ticarətin, xüsusən də pərakəndə satışın genişlənməsi baxımından uğurlu tədbir olub.

***Mədəniyyət və Turizm Nazirliyinin nəzdində yaradılan Konqreslər Bürosunun rəhbəri Ülviyyə Mirqasımova*** qeyd edib ki, festivalın keçirilməsinə cavabdehlik daşıyan bütün qurumlar üzərlərinə düşən vəzifələri lazımınca yerinə yetirə biliblər. Xüsusilə vurğulanıb ki, cəmi 10 gün ərzində festivalın proqram təminatının yaradılması, treninqlərin keçirilməsi, yerlərdə köşklərin quraşdırılması, banklarla danışıqların aparılması və s. işlər ilk baxışdan imkansız görünsə də, bütün bunlar Vergilər Nazirliyi tərəfindən yüksək səviyyədə öz həllini tapıb.

Tədbir zamanı o da qeyd olunub ki, növbəti festival zamanı ƏDV-nin qaytarılması qaydalarında müəyyən dəyişiklik edilə bilər. Məsələn, vəsaitin qaytarılma müddəti 1 gün deyil, 3-5 gün ərzində həyata keçirilə bilər. Bununla yanaşı, əlavə məhsulların bu proqrama daxil edilməsi də istisna deyil və bununla bağlı hazırda məsləhətləşmələr gedir.

**Aytən NƏBİYEVA**

# Əmlak vergisi

«Bələdiyyələrin statusu haqqında» Qanuna əsasən, Azərbaycan Respublikasında yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemidir ki, bu sistem onlara qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək və yerli əhalinin mənafeyi naminə Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin II hissəsinə uyğun olaraq, dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir. Bu hüquqları qanunla müəyyən edilmiş qaydada ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilmiş bələdiyyə üzvlərindən ibarət nümayəndəli kollegial orqanlar (bələdiyyələr) və ya vətəndaşların yığıncaqları həyata keçirir. Bələdiyyələr öz vəzifələrini yerinə yetirmək məqsədilə onların qarşısında məsuliyyət daşıyan, daimi fəaliyyət göstərən icra strukturları yarada bilərlər.

Bələdiyyə (yerli) büdcəsinin gəlirləri yerli vergilərin və ödənişlərin əsasında formalaşır. Bu vergi və ödənişlərə fiziki şəxslərin torpaq vergisi, fiziki şəxslərin əmlak vergisi, yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi, bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi, bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə yerləşdirilən küçə reklamlarına görə ödəniş, kurort rüsumu, mehmanxana rüsumu, avtomobillərin dayanacaqları üçün rüsum və qanunla müəyyən edilən digər yerli ödənişlər aiddir.

Bələdiyyələr qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə forması olmaqla bələdiyyə əhalisinin həyat fəaliyyətinin bilavasitə təmin edilməsi ilə bağlı yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir. Yerli büdcələrin xərclərinin həcmi və istiqamətləri bələdiyyələr tərəfindən müəyyənləşdirilir. Yerli büdcələrdə həmçinin yerli sosial müdafiə, sosial və iqtisadi inkişaf, habelə ekoloji proqramların maliyyələşdirilməsi üçün xərclər nəzərdə tutula bilər.

Fiziki şəxslərin xüsusi mülkiyyətində olan mənzilə görə əmlak vergisi onun yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən əmlakın hər kvadratmetrinə görə Vergi Məcəlləsi ilə müəyyən edilmiş dərəcələrlə hesablanır və verginin ödənilməsi barədə tədiyyə bildirişi fiziki şəxslərə çatdırılır. Hesablanmış əmlak vergisinin məbləği fiziki şəxslər tərəfindən banklar, poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələrindən istifadə edilməklə yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilməlidir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 10 mart tarixli, 40 nömrəli qərarı ilə özəlləşdirilmiş mənzillərin mülkiyyətçilərinə mənzillərin yerləşdiyi evlərin (binaların) saxlanılması üçün xidmət haqqı, mülkiyyət formasından asılı olmayaraq yaşayış binalarında liftdən istifadəyə görə kommunal xidməti haqqı kimi vergi hesab edilməyən ödənişlər müəyyən edilmişdir.

Həmin Qərarın 3-cü bəndinə əsasən qismən özəlləşdirilmiş çoxmənzilli evlərdə bu evlərə xidmət (evin bütün mənzillərinin özəlləşdirilməsinə qədər) evlərə özəlləşdirmədən əvvəl xidmət etmiş dövlət mənzil-istismar təşkilatları tərəfindən həyata keçirilir. Dövlət mənzil-istismar və təmir-tikinti təşkilatları özəlləşdirilmiş mənzillərin (evlərin) mülkiyyətçiləri (mülkiyyətçilərin şirkətləri, digər birlikləri) ilə yalnız müqavilə əsasında bu evlərə (mənzillərə) xidmət göstərə bilərlər.

Göründüyü kimi, bələdiyyə büdcəsinə ödənilən yerli vergi və ödənişlər bələdiyyə büdcəsinin maliyyə əsaslarını təşkil etməklə bələdiyyə əhalisinin həyat fəaliyyətinin bilavasitə təmin edilməsi ilə bağlı yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edilməsinə yönəldilir. Mənzil-istismar təşkilatlarına aparılan ödənişlər isə bilavasitə özəlləşdirilmiş mənzillərin mülkiyyətçiləri ilə bağlanmış müqavilə əsasında bu evlərin (binaların) saxlanılması üçün xidmət haqqının ödənilməsindən ibarətdir.

**Material**
**Vergi siyasəti və strateji araşdırmalar departamenti tərəfindən təqdim olunub**

# Vergi orqanında işləmək fərqli məsuliyyət, səriştə və əzmkarlıq tələb edir



Dünyada insan resurslarının idarə edilməsi sahəsində tendensiyaların sürətlə dəyişdiyini nəzərə alaraq, Vergilər Nazirliyi insan resurslarının idarə edilməsi üzrə fəaliyyətini bu tendensiyalara uyğun olaraq durmadan təkmilləşdirməyə çalışır. Müsahibimiz nazirliyin İnsan resursları departamentinin baş direktoru Faiq Şahbazovdur.

***- Faiq müəllim, Vergilər Nazirliyinin insan resursları strategiyasının prioritetlərini ümumi şəkildə necə səciyyələndirə bilərik?***

- Hazırda Vergilər Nazirliyinin insan resursları strategiyasının qarşısında duran əsas prioritetlərə kadrların seçilməsi və yerləşdirilməsində vergi orqanlarının spesifik xüsusiyyətlərinin, cari və perspektiv hədəflərinin nəzərə alınması, rəhbər vəzifələrə kadrların daha planlı və sistemli hazırlanması, vəzifə tutan şəxslərin idarəetmə sahəsində bacarıqlarının artırılması, əməkdaşların fəaliyyətinin qiymətləndirilməsinin daha obyektiv, hərtərəfli və nəticəyönümlü aparılması, vergi orqanları əməkdaşlarının təliminin onların fərdi karyera inkişafı ilə birbaşa əlaqələndirilməsi, effektiv həvəsləndirmə sistemi qurmaqla peşəkar kadrların vergi orqanlarına cəlb edilməsi və saxlanılması daxildir.

Xüsusilə son dövrlərdə görülən bütün bu işlər dövlət vergi orqanlarında insan resurslarının idarə edilməsinə yeni yanaşmanın əsasını qoyur. Bunun əsas mahiyyəti isə insan resurslarının idarə olunmasında ümumi yanaşmadan fərdi yanaşmaya və «istedadın idarə olunmasına» (talent management) keçidin təmin edilməsidir.

***- Vergilər Nazirliyi gənc kadrların potensialından geniş istifadə edən qurum kimi fərqlənir...***

- Biz həmişə gənclərin bol enerjisindən, müasir dünyagörüşündən, yeniliklərə meyilliliyindən, onların cəmiyyətdə özlərini sübut etmək və nüfuz qazanmaq istəyindən irəli gələn təşəbbüskarlığından yararlanmağa çalışmışıq. Potensiallı gəncləri dövlət vergi orqanlarında xidmətə cəlb etmək və bu potensialdan səmərəli şəkildə faydalanmaq Vergilər Nazirliyinin insan resursları siyasətinin başlıca istiqamətlərindəndir.

2005-ci ildən başlayaraq dövlət vergi orqanlarına işə qəbul üzrə keçirilmiş ümumilikdə 12 müsabiqə nəticəsində 1258 nəfər gənc vergi orqanlarında işlə təmin edilib. Bu gün vergi orqanlarında xidmət keçən vəzifəli şəxslərin təxminən 47,3%-i yaşı 35-ə qədər olan gənclərdir. Vergilər Nazirliyi gənc kadrların daha yuxarı vəzifələrə irəli çəkilməsi baxımından da fərqlənir. Yuxarı menecer vəzifələrinin tutulması üçün potensiallı kadrların müəyyən edilməsi və onların sistemli olaraq həmin vəzifələrə hazırlanması məqsədilə nazirliyin kadr ehtiyatı formalaşdırılıb ki, hazırda bu ehtiyatda kifayət qədər gənc kadrlarımız var. Qeyd edilən kadr ehtiyatında olan, habelə orta menecer vəzifələrinə yeni təyin edilən gənc əməkdaşlarımız üçün mütəmadi olaraq hər il idarəetmə sahəsində təlimlər təşkil olunur. Görülən işlərin nəticəsidir ki, hazırda rəhbər vəzifəli şəxslərin 32,2%-ni yaşı 35-dən aşağı olan əməkdaşlar təşkil edir.

> Dövlət vergi orqanlarına işə qəbul üzrə keçirilmiş ümumilikdə 12 müsabiqə nəticəsində 1258 nəfər gənc vergi orqanlarında işlə təmin edilib

***- Vergi orqanlarında işləmək istəyənlər üçün keçirilən son imtahanların nəticələrini qənaətbəxş hesab etmək olarmı?***

- Dövlət vergi orqanlarının kadr tələbatını nəzərə alaraq, 2017-ci ildə iki müsabiqə keçirmişik. Müsabiqələrin obyektiv, şəffaf və peşəkar təşkili üçün bütün zəruri addımlar atılıb: KİV-də ətraflı məlumatı əks etdirən müsabiqə elanları dərc edilib, namizədlərin qeydiyyatı onlayn qaydada aparılıb, test imtahanına hazırlıq üçün imtahan proqramları əvvəlcədən nazirliyin internet saytında yerləşdirilib, müsahibələrin video çəkilişi aparılıb, müsabiqələrin hər mərhələsi, o cümlədən nəticələri üzrə məlumatlar ictimaiyyətə çatdırılıb və s.

Müsabiqələrdə iştirak etmək üçün ümumilikdə 4976 nəfər (birinci müsabiqədə 3532 nəfər, ikinci müsabiqədə 1444 nəfər olmaqla) vətəndaş müraciət edib. İndiyədək keçirilmiş müsabiqələr içərisində həm müraciət edənlərin, həm də namizəd kimi qeydə alınanların sayı baxımından ən yüksək göstərici bu müsabiqələrdə müşahidə olunub. Müsabiqələrin test imtahanı mərhələsində 92 nəfər uğur qazanaraq müsahibə mərhələsinə buraxılıb, həmin mərhələdə isə 83 nəfər müvəffəqiyyət əldə edərək ehtiyat kadrlar siyahısına daxil edilib. Onlardan 58 nəfəri artıq analoji vakant vəzifələrə təyin olunub. Hazırda işə yeni qəbul edilənlər Vergilər Nazirliyinin Tədris Mərkəzində ilkin hazırlıq kursu keçirlər.

Ümumilikdə, göstərilən nəticələr bizim üçün qənaətbəxş olsa da, fikrimcə, namizədlərin hazırlıq səviyyələrini artırmağa ehtiyac var. Çünki dövlət orqanlarında, ələlxüsus xüsusi növ dövlət orqanında xidmət keçmək fərqli məsuliyyət, səriştə və əzmkarlıq tələb edir. Bu gün bütün dünyada, o cümlədən ölkəmizdə iqtisadiyyatın inkişafında yanaşmalar və islahatlar sürətlə dəyişməkdədir. Namizədlər də həmin dəyişikliklərlə ayaqlaşmalı, bu proseslərin müşahidəçisi deyil, iştirakçısına çevrilməlidirlər. Bunun üçünsə onlar daim sistemli şəkildə öz üzərlərində işləməli, biliklərini yeniləməli, mütaliə etməlidirlər. Əksər hallarda namizədlərin müsabiqələrdə uğur qazanmamasının əsas səbəbi onların dünyada gedən ümumi proseslər barədə məlumatlarının zəif olması, iş seçimlərinin təsadüfiliyi, bəzən də biliklərinin daha çox əzbərçilik xarakteri daşıması olur.

Sonuncu müsabiqələr xüsusilə regionlarda yerləşən vergi orqanlarının kadr tələbatının ödənilməsində mühüm rol oynadığından, deyə bilərəm ki, biz bu müsabiqələrin keçirilməsində qarşıya qoyulmuş məqsədlərə ümumilikdə nail olduq.

***- Kadrların peşəkarlığının artırılması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, əcnəbi ekspertlərin iştirakı ilə keçirilən treninq və seminarlar barədə nə deyə bilərsiz?***

- İnsan resurslarının idarə edilməsi sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və uyğun təcrübələrin tətbiqi üçün Vergilər Nazirliyi zəruri beynəlxalq əməkdaşlıq həyata keçirir. Bu sahədə xüsusən Avropa İttifaqının «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək» tvinninq layihəsini qeyd etmək istərdim. Layihə çərçivəsində nazirliyin əməkdaşları insan resursların idarə edilməsi, risklərin analizi üçün informasiyaların toplanması və təhlili üsulları sahəsində İspaniya və Fransa Vergi Administrasiyalarının ən yaxşı təcrübələrini öyrəniblər.

Öyrənilmiş təcrübə əsasında insan resurslarının inkişafı sahəsində strategiya və tədbirlər planının layihəsi hazırlanıb. Həmçinin insan resurslarının idarə edilməsi sahəsində bir sıra qaydalar, təlimat və tövsiyələr təsdiq edilib ki, onların içərisində «Dövlət vergi orqanlarında orta menecer vəzifələrinin tutulması üçün keçirilən müsahibə Qaydaları»nı, «Dövlət vergi orqanlarında yuxarı menecer vəzifələrinin tutulması üçün kadr ehtiyatının yaradılması və idarə olunması Qaydaları»nı ayrıca vurğulamaq istərdim. Bundan əlavə, onlayn təlim sistemi təkmilləşdirilib, tədris-təlim proqramları və üsulları yenilənib, təlim keçmək üçün metodik materiallar hazırlanıb. Layihə çərçivəsində əməkdaşların uzunmüddətli təlim tələbatları öyrənilib və bu tələbatlar illik təlim planlarının tərtibi zamanı nəzərə alınıb.

Ümumilikdə layihənin icrası müddətində nazirliyin 150 əməkdaşı xarici ekspertlərin cəlb olunduğu 35 işçi seminarda və təlimdə 30 mövzu üzrə ən son təcrübə ilə yaxından tanış olub. Təbii ki, insan resurslarının idarə edilməsi sahəsində qarşımızda duran prioritetlərə uyğun olaraq yeni beynəlxalq əməkdaşlıq istiqamətlərini daim araşdırırıq.

> Potensiallı gəncləri dövlət vergi orqanlarında xidmətə cəlb etmək və bu potensialdan səmərəli şəkildə faydalanmaq Vergilər Nazirliyinin insan resursları siyasətinin başlıca istiqamətlərindəndir

***- «2013-2020-ci illərdə vergi sisteminin İnkişaf Strategiyası» ilə bağlı İnsan resursları departamenti hansı işləri yerinə yetirir?***

- Vergilər nazirinin əmri ilə təsdiq edilmiş «2013-2020-ci illərdə vergi sisteminin İnkişaf Strategiyası»nda nazirliyin potensial imkanlarından biri kimi onun malik olduğu insan kapitalı xüsusi vurğulanır və idarəetmədə səmərəliliyinin artırılması, əməkdaşların tədris və təlim prosesinin təkmilləşdirilməsi strateji məqsədlər kimi müəyyən edilir.

İnkişaf Strategiyasının icrası məqsədi ilə təlim-tədris proseslərinin daxili hüquqi bazası yenilənib, əməkdaşların peşə hazırlığının təşkilinin yeni qaydaları, həmçinin bir sıra metodiki təlimat və tövsiyələr qəbul edilib. Təlim-tədris proseslərinin lazımi səviyyədə təşkili üçün infrastruktur kifayət qədər təkmilləşdirilib. Bu gün Vergilər Nazirliyinin Şamaxı rayonunda ən müasir auditoriyalarla, texniki avadanlıqlarla, dinləyicilərin və təlimçilərin qalması üçün yataqxanalarla təchiz edilmiş Tədris Mərkəzi fəaliyyət göstərir.

İKT-nin imkanlarından istifadə etməklə 2015-ci ildən onlayn rejimdə iş yerindən ayrılmadan əməkdaşlar üçün e-təlimlər təşkil edilir ki, bu da az xərc və vaxt sərf etməklə təlim proseslərinin intensivləşməsinə imkan verir. Məncə, təkcə bu rəqəmləri demək kifayətdir ki, 2016-cı il ərzində 2876 nəfər e-təlimlərə cəlb edilib. Cari ilin yanvar-may aylarında isə 1063 nəfər əməkdaş onlayn təlimlərdə iştirak edib.

2016-cı ildən başlayaraq vergi orqanlarının fəaliyyət sahələri üzrə əməkdaşların bilik və bacarıqlarının sertifikatlaşdırılmasına başlanıb. Bu isə əsasən vergi orqanlarının spesifik kadr tələblərinin nəzərə alınması və ayrı-ayrı sahələr üzrə kadrların ixtisaslaşmasına xidmət edir.

Nazirlik tərəfindən təşkil edilən təlim və kursların, habelə onlayn təlimlərin səmərəliliyinin artırılması məqsədi ilə vergi orqanlarının təlimçi qismində iştirak edən əməkdaşları üçün yerli və xarici ekspertləri cəlb etməklə hər il «Təlimin əsasları» mövzusunda təlimlər təşkil edilir. Əsas məqsəd nazirliyin təlimlərində müasir təlim metodlarından və texnologiyalarından istifadənin genişləndirilməsidir.

Bunlarla yanaşı, idarəetmədə səmərəliliyin artırılması məqsədi ilə vergi orqanları əməkdaşlarının fəaliyyətinin qiymətləndirilməsinin yeni mexanizmi hazırlanmaqdadır. Bu mexanizm İKT-nin imkanlarından istifadə etməklə qiymətləndirmə proseslərinin mümkün qədər avtomatlaşdırılmasına və subyektivliyin tam aradan qaldırılmasına, resursların mütənasib paylanılmasına xidmət edəcək.

# Vergi ödəyicilərinin hüquqlarının qorunması onların fəaliyyətini asanlaşdırır

**Hər il may ayının 18-dən iyun ayının 18-dək ölkəmizdə «İnsan hüquqları aylığı» keçirilir. «Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı»na, eləcə də «Azərbaycan Respublikasında insan hüquqları sahəsində Milli Fəaliyyət Proqramı»na uyğun olaraq vergi sistemində keçirilən tədbirlər yalnız kampaniya ilə məhdudlaşmayıb, davamlı səciyyə daşımaqla vergi siyasətinin tərkib hissəsini təşkil edir.**

### Sahibkarların hüquqlarının qorunması üçün mühüm addımlar atılır

Azərbaycanın vergi siyasəti qarşıya sahibkarlığın inkişafını stimullaşdırmaq, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi kimi mühüm vəzifələr qoyur. Vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması və ödəyicilərin hüquqlarının qorunmasının yüksək səviyyədə təşkili məqsədilə vergi qanunvericiliyi təkmilləşdirilmiş, vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi sahəsində kompleks tədbirlər həyata keçirilmişdir. Vergi qanunvericiliyində edilmiş dəyişikliklərin böyük əksəriyyəti vergi ödəyicilərinin hüquq və mənafelərinin qorunması ilə bağlıdır. Məcəllədə vergi sistemi, vergitutmanın ümumi əsasları, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydaları, vergi ödəyiciləri və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət və digər qaydalar təkmilləşdirilmişdir.

Vergilər Nazirliyi sahibkarların məlumatlandırılması işinin günün tələbləri səviyyəsində qurulması üçün elektron informasiya məkanından geniş istifadə edir. Vergilər barədə məlumat bazasının yaradılması, vergi orqanları və vergi ödəyiciləri, həmçinin vətəndaşlar arasında interaktiv əlaqələrin intensivləşdirilməsi və genişləndirilməsi bu məqsədlərə xidmət edir. Hazırda vergi ödəyicilərinin nazirliyin www.taxes.gov.az rəsmi internet saytı vasitəsilə vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı və onların fəaliyyəti ilə əlaqədar saxtakarlıq və ya korrupsiya halları, eləcə də sahibkarlıq fəaliyyətində vergi qanunvericiliyi ilə əlaqədar hüquq pozuntuları barədə Vergilər Nazirliyinin Apelyasiya Şurasına müraciət etmək və videoqəbuldan yararlanaraq öz şikayətlərini nazirliyin rəhbərliyinə çatdırmaq imkanları vardır.

> Vergilər Nazirliyi sahibkarların məlumatlandırılması işinin günün tələbləri səviyyəsində qurulması üçün elektron informasiya məkanından geniş istifadə edir

«Facebook» sosial şəbəkəsində isə Azərbaycanın vergi sisteminin təbliği ilə bağlı geniş məlumat bazası yerləşdirilib. Vergi ödəyicilərinin mobil telefonlarına vergilərlə bağlı informasiyalar göndərilməklə onlar vaxtında məlumatlandırılır.

Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə müntəzəm olaraq regionlarda sahibkarlarla və sahibkarların ictimai təşkilatları ilə müxtəlif mövzularda görüşlər keçirilir, «dəyirmi masa»lar təşkil olunur. Vergi ödəyiciləri üçün keçirilən «Açıq qapı günü» tədbirlərində ictimai təşkilatların nümayəndələri ilə yanaşı, kütləvi informasiya vasitələrinin əməkdaşlarının yaxından iştirakı təmin olunur. Sahibkarların rəy və təkliflərinin öyrənilməsi üçün təşkil edilən tədbirlər çərçivəsində özəl istehsalın inkişafı ilə bağlı fikirlər dinlənilir.

Vergi ödəyicisi və ya vətəndaş Vergilər Nazirliyinə yazılı müraciət ünvanladığı halda, ona 3 gün müddətində ilkin cavab məktubu göndərilir. Məktubda müraciətin icraata qəbulu, ona hansı idarədə və ya şöbədə, hansı əməkdaş tərəfindən baxıldığı, həmin əməkdaşın əlaqə nömrələri öz əksini tapır. Beləliklə, vətəndaş öz müraciətinin icra vəziyyətinə nəzarət imkanı əldə edir. Bundan əlavə, vergi ödəyiciləri onları narahat edən məsələlərilə bağlı «195-1» Çağrı Mərkəzindən günün 24 saatı ərzində məlumat ala bilirlər. Müraciətinə verilən ilk cavabdan razı qalmayan vergi ödəyicisinin Vergilər Nazirliyinə ünvanladığı təkrar müraciətinə isə Vergilər Nazirliyinin Apelyasiya Şurasında baxılır və müvafiq qərar qəbul edilir.

### Tərəfdaşlıq üçün münbit şərait yaradılıb

Vergi qanunvericiliyinə vergi orqanları ilə ödəyicilər arasında tərəfdaşlıq münasibətlərinin qurulmasını təmin edən normaların daxil edilməsi xüsusi əhəmiyyət kəsb edir. Vergi partnyorluğu sazişi vergi orqanı ilə ödəyici arasında risklərin minimallaşdırılması məqsədilə könüllü şəkildə bağlanmış niyyət razılaşmasıdır. Bu, vergi inzibatçılığı prosesində vergi orqanları ilə ödəyici arasında münasibətlərin tamamilə yeni əsaslarda qurulması deməkdir. Nazirlər Kabinetinin 2013-cü il 19 iyul tarixli qərarı ilə təsdiq edilmiş «Vergi partnyorluğu sazişinin forması» və «Vergi partnyorluğu sazişinin bağlanması qaydaları» bu istiqamətdə işlərin başlanmasına normativ-hüquqi zəmin yaradıb. Vergi partnyorluğu sazişi sahibkarların fəaliyyətinə lüzumsuz müdaxilələrin qarşısını almaqla biznesin inkişafını stimullaşdırmaq, əməkdaşlığa, qarşılıqlı etibarlılığa və şəffaf münasibətlərə əsaslanan birgə fəaliyyəti təmin etmək, müasir idarəetmə alətləri vasitəsilə biznes subyektlərini vergi orqanlarının fəaliyyətinə cəlb etmək, vergilərin ödənilməsi ilə bağlı könüllü əmələtmə səviyyəsinin artırılması istiqamətində partnyorluq etmək, ədalətli, çevik, effektiv və səmərəli vergi nəzarəti yaratmaq, vergi risklərini minimallaşdırmaq məqsədi daşıyır. Vergi partnyorluğu sazişinin reallaşdırılması, ilk növbədə, Azərbaycanda biznes mühitinin liberallaşdırılması tədbirlərinin davamlı səciyyə daşıdığının göstəricisidir.

**Rəşad SADIQOV**

# Yeni elektron xidmət istifadəyə verilib

Vergilər Nazirliyinin tətbiq etdiyi bu xidmət vergi ödəyicilərinə öz vergi borclarını daha asan və rahat şəkildə öyrənmək imkanı yaradır. Sahibkar öz vergi borcları barədə məlumat əldə etmək üçün nazirliyin elektron resursu - İnternet Vergi İdarəsinə daxil olaraq «Elektron xidmətlər» bölməsinin «Vergi borcu barədə məlumatın verilməsi» altbölməsində müvafiq pəncərəni seçməlidir. Vergi ödəyicisi həmin pəncərədə VÖEN-i daxil etməklə dövlət büdcəsinə olan vergi borcu barədə məlumatı əldə edə bilər.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamenti ödəyicilərin bu barədə məlumatlandırılması məqsədilə müvafiq mətn və vergi borcu barədə məlumatın əldə olunması prosesini əks etdirən məlumat da hazırlayıb. Vergi ödəyiciləri öz borcları barədə məlumatın verilməsi üçün Çağrı Mərkəzinə zəng etmək, İnternet Vergi İdarəsinə daxil olmaq, SMS göndərmək, abunə olmaq kimi digər metodlardan da istifadə edə bilərlər.

# Əqli mülkiyyət sahələrində yeni mexanizmlər hazırlanır

Əqli mülkiyyətin ən vacib və əsas tərkib hissəsini elm, ədəbiyyat və incəsənət əsərləri ilə bağlı müəlliflik hüququ və ona oxşar olan ifaçıların, fonoqram istehsalçılarının, radio-televiziya yayım təşkilatlarının əlaqəli hüquqları təşkil edir. Əqli mülkiyyətin ikinci vacib hissəsini ixtiralar, faydalı modellər və sənaye nümunələri ilə bağlı patent hüququ təmsil edir. Nəhayət, bunların arxasınca əmtəə nişanları, coğrafi göstəricilər və digər obyektlərlə bağlı hüquqlar gəlir. Əqli mülkiyyət hüquqlarının müəyyən hissəsi qeyri-ənənəvi obyektlərlə də bağlıdır. Bunların sırasında inteqral sxem topologiyaları və məlumat topluları müasir İKT-nin nəticəsidir. Qeyri-maddi mədəni irsin qorunmasında ənənəvi mədəni nümunələr (folklor nümunələri) və ənənəvi biliklərə əqli mülkiyyət hüquqları verilməsi müstəsna əhəmiyyətə malikdir.

«Əqli mülkiyyət və ənənəvi biliklər» mövzusunda keçirilən tədbirdə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədr müavini Niyazi Rəhimov bildirib ki, komitə tərəfindən xalçaçılıq, xalq təbabəti, bitkiçilik, heyvandarlıq, şərabçılıq və digər sahələrdə hüquqların qorunması ilə bağlı yeni mexanizmlər işlənib hazırlanır və onlara əsaslanan patentlər qeydiyyata alınır. Beynəlxalq hüquqi mexanizmlərin işlənib hazırlanması məqsədilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı nəzdində ənənəvi biliklər, genetik resurslar və folklor üzrə hökumətlərarası komitə fəaliyyət göstərir.

Dövlət Komitəsi tərəfindən yaxın vaxtlarda görüləcək tədbirlər nəticəsində ənənəvi biliklərin tətbiqinin geniş təşviqi, eləcə də Azərbaycanın torpağı kimi bir çox sərvətlərinə də təcavüz edən erməni saxtakarlığı kimi təhlükələrdən qorunmaq istiqamətində iş aparılacaq.

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Elektron qaimə-faktura

***Komitent tərəfindən komisyonçuya verilmiş malların komissiya qaydasında satışı zamanı həmin malların alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara elektron qaimə-faktura təqdim edilməlidirmi?***

Vergi Məcəlləsinin (VM) 172.5.4-cü maddəsinə əsasən, malların komisyon qaydada satışı zamanı komitent üçün vergitutma bazası komisyonçuya verilmiş malların dəyəridir (komisyon haqları çıxılmadan).

Komisyonçu komissiyaya götürdüyü malların dəyərinə ƏDV daxil edilib-edilməməsindən asılı olmayaraq, malların alıcısına elektron vergi hesab-fakturasını verə bilməz (VM, maddə 172.5.6).

Elektron qaimə-faktura hüquqi şəxslərə və fərdi sahibkarlara malları təqdim edən, işləri görən və xidmətləri göstərən şəxslər tərəfindən təqdim edilir (VM, maddə 71-1.1).

**Qeyd olunanlara əsasən:** Malların komissiyaya verilməsi malların təqdim edilməsi hesab edilmədiyindən komitent tərəfindən komisyonçuya verilmiş mallara görə elektron qaimə-faktura təqdim edilmir. Komissiyaya qəbul edilmiş mallar «Malların təhvil-qəbul aktı» ilə sənədləşdirilir və malların komissiyaya qəbul edilməsi ilə bağlı tərəflər arasında müqavilə bağlanılır.

Bunlarla yanaşı, malların komissiya qaydasında satışı zamanı həmin malların alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara elektron qaimə-faktura və elektron vergi hesab-faktura komitent tərəfindən təqdim edilir. Bu zaman təqdim edilmiş elektron vergi hesab-fakturası üzrə ödənilən ƏDV məbləğləri VM-in 175-ci maddəsinin müddəalarına uyğun olaraq əvəzləşdirilir.

# İqtisadiyyat «yaşıllaşır»

Avropa İttifaqının «Şərq Qonşuluğu ölkələrində Yaşıl İqtisadiyyat» regional layihəsi çərçivəsində BMT-nin Sənaye İnkişafı Təşkilatı (UNIDO) və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin birgə təşkilatçılığı ilə «Resurs səmərəliliyi və daha təmiz istehsalat» (RSDTİ) layihəsinin yekun milli konfransı keçirilib. Tədbirin başlıca mövzusu Azərbaycanda «yaşıl iqtisadiyyat»ın qurulmasına dəstəyə həsr olunub.

Azərbaycanda milli «yaşıl iqtisadiyyat» göstəricilərinin müəyyənləşdirilməsi üçün metodologiya qəbul edilib və «yaşıl iqtisadiyyat göstəriciləri üzrə İşçi Qrup yaradılıb. Regionlarda «təmiz istehsal» klubları təsis edilib, 38 kiçik və orta müəssisə bu klubların fəaliyyətindən bəhrələnib.

İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun rəhbəri Vilayət Vəliyevin sözlərinə görə, «yaşıl iqtisadiyyat» dayanıqlı inkişaf prinsiplərinə çatmaq üçün ən mühüm iqtisadi vasitələrdən biri kimi insanların rifahını və sosial ədaləti təmin edən, ətraf mühit risklərini kəskin şəkildə azaldan iqtisadi mexanizmdir. Bir sıra ölkələrdə «yaşıl biznes» adlandırılan bu sahə ənənəvi texnologiyalardan uzaqlaşaraq ən müasir innovasiyalara əsaslanan rəqabət qabiliyyətli istehsal və xidmətlərin təşkilini nəzərdə tutur. «Yaşıl iqtisadiyyat»da fiskal siyasət mühüm rol oynadığından hər bir ölkə özünəməxsus fiskal alətlərdən istifadə edir. Bu alətlərə ekoloji təmiz məhsul, alternativ enerji mənbələrinin əldə olunması və istifadəsi, vergi güzəştlərinin tətbiqi və digər stimullaşdırıcı vasitələr, sahibkarları bu prosesə təşviq etmək üçün müvafiq mexanizmin yaradılması, subsidiyaların verilməsi, müasir innovativ texnologiyalara üstünlük verən və davamlı istehsal fəaliyyəti ilə məşğul olan sektorlara maliyyə güzəştlərinin tətbiqi və s. daxildir. Avropa və Asiyanın inkişaf etmiş ölkələrində fiskal siyasətin əsas istiqamətləri kimi ekoloji vergi (karbon vergisi), istehsal prosesləri zamanı ətraf mühiti çirkləndirməyə görə cərimələr tətbiq olunur. Eyni zamanda, «yaşıl iqtisadiyyat»ın inkişafında müsbət rola malik sahibkarlara mükafatlar təqdim edilir, qrantlar, güzəştli kreditlər verilir. Hökumət ekoloji təmiz infrastruktur və təmiz istehsal texnologiyalarını artıran biznes nümayəndələrinin bəzi xərclərini dövlət xərclərinə aid edir.

Azərbaycanda bununla bağlı müəyyən edilmiş davamlı inkişaf proqramlarında, «Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair» Milli Proqramda və «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında bir sıra prioritetlər müəyyən edilib. Əsas hədəf iqtisadiyyatın davamlı artması və təmiz ekoloji məhsul istehsalı və xidmətlərin yaradılması, iqtisadi resursların gələcək nəsillər üçün ədalətli bölgüsünün təmin edilməsi, «yaşıl iqtisadiyyat»a investisiyaların həcminin artırılmasıdır. Konsepsiyada göstərilib ki, biomüxtəlifliyin qorunması, yanacaq-enerji kompleksinin ətraf mühitə mənfi təsirinin neytrallaşdırılması, dənizin və onun akvatoriyasının çirklənməsinin aradan qaldırılması, yaşıl ərazilərin bərpası və mövcud resursların səmərəli mühafizəsi istiqamətində zəruri tədbirlər gələcəkdə də davam etdiriləcək. Konsepsiyanın əhatə etdiyi dövrdə Azərbaycanda orta hesabla bir vahid ümumi daxili məhsul istehsalı üçün istifadə edilən enerjinin və emissiya olunan zərərli qazların miqdarı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələri üzrə müvafiq göstəriciyə yaxınlaşdırılacaq. Konsepsiya çərçivəsində qarşıya Azərbaycanda iqtisadiyyatın «yaşıllaşdırılması», alternativ (bərpa olunan) enerji mənbələrindən istifadənin stimullaşdırılması, bu sahədə mütəxəssislərin hazırlanması və enerji istehlakçılarının maarifləndirilməsi kimi ciddi vəzifələr qoyulmuşdur.

BMT-nin Ətraf Mühit Proqramının regional direktoru Jan Dusik hesab edir ki, Azərbaycanda «yaşıl iqtisadiyyat»a keçid üçün böyük potensial var. Energetika sahəsində bərpa olunan enerjidən istifadə, aqrar sektorun müasir tələblərə uyğun inkişafı, nəqliyyat sahəsində yeni texnologiyalara üstünlük verilməklə alternativ xidmət sahələrinin yaradılması münbit şəraitin mövcud olduğunu göstərir. Davamlı enerji resursları kimi alternativ enerji mənbələrindən (su-elektrik stansiyaları, günəş enerjisi, külək enerjisi, dalğa enerjisi, geotermal enerji, bioenerji) istifadəni genişləndirmək üçün həmin sahələrə böyük həcmli sərmayələrin yatırılmasına ehtiyac var. Bu siyasət ekoloji tarazlığın qorunub saxlanması və mühafizəsi sahəsində hədəflərə çatmaqda da ən yaxşı vasitədir.




Avropa və Asiyanın inkişaf etmiş ölkələrində fiskal siyasətin əsas istiqamətləri kimi ekoloji vergi (karbon vergisi), istehsal prosesləri zamanı ətraf mühiti çirkləndirməyə görə cərimələr tətbiq olunur

**ELBRUS**

# İxrac əməliyyatları asanlaşdırılır

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində «Bir pəncərə» İxraca Dəstək Mərkəzinin təqdimat mərasimi olub. Mərkəzin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, «Azexport.az» portalının nəzdində fəaliyyət göstərəcək qurum Azərbaycanda vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibinə və imzalanmasına, habelə real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə şərait yaradacaq. Bununla da daha az resurs sərf etməklə ixrac prosedurlarını daha sürətlə həyata keçirən sahibkarlar mərkəzin imkanlarından yararlanacaqlar.

«Azexport.az» portalının rəhbəri Zaur Qardaşov qeyd edib ki, hazırda «Bir pəncərə» İxraca Dəstək Mərkəzinə inteqrasiya olunan dövlət orqanlarının nümayəndələri xidmət mərkəzində fəaliyyət göstərərək, informasiya resursları ilə real vaxt rejimində məlumat mübadiləsini təşkil edir. «Bir pəncərə» İxraca Dəstək Mərkəzi ixrac edilən heyvanlara, heyvan mənşəli məhsullara və xammala beynəlxalq baytarlıq sertifikatının, bitki və bitkiçilik məhsullarının ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının, Aİ ölkələrinə yeyinti məhsullarının ixracı üçün keyfiyyət sertifikatının, malın mənşə ölkəsini təsdiq edən sertifikatın, kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin ixracı üçün icazənin (sertifikatın), mədəni sərvətlərin ixracı üçün mədəni sərvətin mühafizə şəhadətnaməsinin, dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarda), audio və videomaterialların, malların (məmulatların) və dini məzmunlu başqa məlumat materiallarının ixracına razılıq verilməsini, eləcə də elektron gömrük bəyannamələrinin doldurulmasını təmin edəcək.

Z.Qardaşovun sözlərinə görə, mərkəzdə ixrac bəyannamələrinin elektron qaydada doldurulması həyata keçiriləcək: «Bəyannamələr doldurulduqdan sonra Dövlət Gömrük Komitəsinin (DGK) bazasına ötürülür və daha sonra digər fiskal qurumlar, o cümlədən Vergilər Nazirliyi DGK ilə mövcud qarşılıqlı elektron mübadilə əsasında ixrac bəyannamələrinə çıxış əldə edə bilər. Bu, Vergilər Nazirliyinə ixrac mallarına nisbətdə ƏDV güzəştlərinin hesablanmasını daha da sürətli həyata keçirməyə imkan yaradacaq. Bununla yanaşı, ixracın təşviqi üçün zəruri olan məbləğin ödənilməsi portal vasitəsilə həyata keçirildiyi üçün gələcəkdə bu hesablaşmaların vergi yığımları tədbiq edilərkən nəzərə alınması mümkün olacaq».

**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycanın təqdim etdiyi layihə «çempionlar» sırasında...

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2014-cü ilin iyulundan istifadəyə verilmiş Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi əmək münasibətlərinin və bu münasibətlərdə baş verən dəyişikliklərin elektron müstəvidə rəsmiləşdirilərək şəffaflaşdırılmasına, əmək bazarına nəzarətin çevik və səmərəli təşkilinə, əmək münasibətlərinin dolğun və obyektiv uçotunun aparılmasına imkan verir. Tətbiqinə başlanıldığı ilk gündən «Elektron hökumət» portalında geniş istifadəçi auditoriyasına malik olan bu sistemə 2017-ci il mayın 1-nə 8 milyona yaxın müraciət edilib.

Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi beynəlxalq təşkilatlar tərəfindən müasir texnologiyaların fəaliyyət və xidmətlər sferasında uğurlu tətbiqinin bariz nümunəsi kimi dəfələrlə yüksək qiymətləndirilib. Sistem qabaqcıl təcrübə nümunəsi kimi BMT-nin «Ərəb ölkələri, Avropa və MDB regionlarında Cənub-Cənub Əməkdaşlığı çərçivəsində əməkdaşlıq mexanizmləri və həllər» adlı portalına daxil edilərək təbliğ olunur və bu məqsədlə Azərbaycanla təcrübə mübadiləsi aparmağa maraq göstərən ölkələrin sayı getdikcə artır.

Sistem bu günlərdə daha bir beynəlxalq uğur qazanıb. BMT-nin ixtisaslaşdırılmış qurumu olan Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) tərəfindən elan olunmuş «İnformasiya cəmiyyəti üzrə ümumdünya Sammiti - 2017 mükafatları» müsabiqəsində Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi «İKT proqramları: e-məşğulluq» nominasiyası üzrə ən çox səs toplayan ilk 5 layihədən biri olub. BTİ beynəlxalq telekommunikasiyanın nizamlanmasına, standartlaşdırılmasına, uzlaşdırılmasına və inkişafına, eyni zamanda bu sahədə dövlətlərin siyasətinin uyğunlaşdırılmasına cavabdehdir. Hazırda 193 ölkənin üzv olduğu BTİ-yə həmçinin bir sıra İKT tənzimləyiciləri, aparıcı elmi institutlar və 700-ə yaxın texnoloji şirkət daxildir. Müsabiqədə müxtəlif ölkələrin, o cümlədən Azərbaycanın ayrı-ayrı qurumları tərəfindən təqdim olunmuş elektron sistemlərə dair ümumilikdə 467 layihə nəzərdən keçirilib və 345 elektron layihə uğurlu hesab edilərək müsabiqəyə buraxılıb. Ümumilikdə 18 nominasiya üzrə onlayn səsvermə əsasında keçirilən müsabiqə nəticəsində nominasiyaların hər biri üzrə ən çox səs toplayan ilk 5 layihə müəyyən olunub və həmin layihələrdən ibarət 90 «çempion layihə» seçilib. Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi müsabiqənin «çempion layihələr» siyahısına daxil edilib.

Bu ilin iyun ayında İsveçrə Konfederasiyasının Cenevrə şəhərində keçiriləcək «İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammiti - 2017»də 90 «çempion» layihədən 18 «qalib layihə» elan olunacaq və BTİ-nin Baş katibi tərəfindən «çempion» və «qalib» layihələrlə bağlı mükafatlar təqdim ediləcək.




Hazırda 193 ölkənin üzv olduğu BTİ-yə həmçinin bir sıra İKT tənzimləyiciləri, aparıcı elmi institutlar və 700-ə yaxın texnoloji şirkət daxildir

**AYTƏN**

# Aqrar sahənin inkişafı stimullaşdırılır

Kənd təsərrüfatında istehsalın dəstəklənməsi və təşviqi məqsədilə bu sahədə fəaliyyət göstərən mülkiyyətçilərə dövlət büdcəsi hesabına verilən investisiya təşviqinin, güzəştli kreditlərin həcmi artırılıb. İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova bildirib ki, 2016-cı ilin mart ayından tətbiq olunan investisiya təşviqi mexanizmi özəl investisiyanın artımına ciddi töhfə verir. Ötən il 79 sahibkarlıq subyektinə 84 investisiya təşviqi sənədi təqdim olunub ki, bu layihələrin reallaşdırılması nəticəsində yerli istehsala 1 milyard manatdan çox investisiya yatırılacaq. Həmin layihələrin 45%-i kənd təsərrüfatını əhatə edir.

Qeyd olunub ki, aqrar sahənin inkişafında vergi-fiskal, gömrük siyasəti də mühüm rol oynayır. Ölkəyə idxal olunan bəzi mal və avadanlıqların əlavə dəyər vergisi (ƏDV) və gömrük rüsumundan azad olunmasına dair qəbul edilən qərar aqrar sektora dəstək xarakteri daşıyır. Vergi güzəştləri biznesə əlverişli şərait yaradır, sadələşdirilmiş verginin tətbiqi, vergi dərəcələrinin optimallaşdırılması və digər tədbirlər investisiyaların artımına səbəb olur. Vergi Məcəlləsinə edilən son dəyişikliklər də iqtisadi inkişafa, o cümlədən iqtisadiyyatın diversifikasiyasına əlavə stimul verir.



Aqrar sahənin inkişafında vergi siyasəti mühüm rol oynadığından inkişaf proqramlarının hazırlanması və həyata keçirilməsi bilavasitə vergi-fiskal rejimlərin müşayiəti ilə tənzimlənir

İqtisadçı Radi Fətullayevin sözlərinə görə, aqrar sahənin inkişafında vergi siyasəti mühüm rol oynadığından inkişaf proqramlarının hazırlanması və həyata keçirilməsi bilavasitə vergi-fiskal rejimlərin müşayiəti ilə tənzimlənir. Səmərəli vergi rejimi kənd təsərrüfatının inkişafında stimullaşdırıcı rol oynayır. Aqraq sektorda tətbiq edilən güzəşt mexanizmi sahibkarların xərc problemlərinin aşağı düşməsinə şərait yaradıb. Mülkiyyətçilər üçün vergi güzəştləri nəticəsində kənd təsərrüfatında xərclər 10%-dək azalıb. 1999-cu ildən kənd təsərrüfatı sektoru, torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad olunub. Bu siyasət nəticəsində 2 milyard manata yaxın vəsait fermerlərdə qalıb və təkrar istehsalın inkişafına yönəldilib. Nəticədə son 17 ildə kənd təsərrüfatı istehsalının həcmi təxminən 5 dəfədən çox artıb. 1999-ci ildə ölkə üzrə cəmi 1 milyard manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilirdisə, hazırda bu rəqəm 5,2 milyard manatdır.

2017-ci ildən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklərin mühüm istiqamətlərindən biri aqrar sahədə çalışan kiçik və orta sahibkarlığın fəaliyyətini stimullaşdırmaq, onların vergi yükünü optimallaşdırmaqdır. Bu məqsədlə unun və çörəyin istehsalı və satışı, quş ətinin satışı 3 il müddətinə ƏDV-dən azad olunub. Kənd təsərrüfatı istehsalçıları 2019-cu il yanvarın 1-dək vergi güzəştləri ilə əhatə olunacaqlar. Bu, il ərzində dövlət tərəfindən təxminən hər il 130-140 milyon manat vergi güzəştinin tətbiqi deməkdir. Həmin vəsait kənd təsərrüfatı istehsalçıları üçün əlavə maliyyə, investisiya mənbəyi təşkil edir və bu sərmayənin təkrar istehsala yönəldilməsi iqtisadi artımda mühüm rol oynayır.

Aqrar sahənin əsas sektorları üzrə Strateji Yol Xəritəsində stimullaşdırıcı vergi-gömrük siyasətinin həyata keçirilməsi, güzəştli kreditlərin verilməsi sisteminin təkmilləşdirilməsi, xarici bazarlara çıxış üçün bir sıra məhsullara tətbiq edilən gömrük-idxal tarif dərəcələrinə yenidən baxılması, o cümlədən mövsümi rüsumların tətbiq edilməsi, kənd təsərrüfatının maliyyə resurslarına tələbatın ödənilməsi və girovsuz kreditlərin tətbiqi nəzərdə tutulur.

**E.CƏFƏRLİ**

# Vergi yükünün optimallaşdırılması iqtisadiyyatın tərəqqisinə xidmət edir

**Azərbaycan hökuməti sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, əhalinin rifahının yaxşılaşdırılması məqsədilə vergi yükünün optimallaşdırılması sahəsində mühüm addımlar atır. Vergi ödəyicilərinə bu və ya digər güzəştlər verilərkən, ilk növbədə, vergi tənzimlənməsinin müxtəlif iqtisadi proseslərə təsiri nəzərə alınır və dərin iqtisadi təhlillər aparılaraq müvafiq qərarlar qəbul edilir. Güzəştlərin əsas hissəsi stimullaşdırıcı xarakter daşıyır və müəyyən sahələrin inkişafını sürətləndirmək məqsədi daşıyır.**

### Ölkənin mənafeyi naminə...

Sənayenin innovasiyalar əsasında inkişafının təmin olunması, texnoparkların sənayeləşmədə əsas strateji layihələr kimi yer alması, sənaye şəhərciyi infrastrukturunun formalaşdırılması və qeyri-neft sənayesinin inkişaf etdirilməsi dövlətin investisiya siyasətinin əsas istiqamətlərini təşkil edir. Bu sahədə Kimya Sənaye Parkının, Yüksək Texnologiyalar Parkının, Balaxanı Sənaye Parkının yaradılması ilk uğurlu addımlardır. Həmin qurumların səmərəli fəaliyyət göstərməsi və investorların bu istiqamətdə cəlb edilməsi üçün 2016-cı il yanvar ayının 1-dən investisiya fəaliyyətini həyata keçirən hüquqi şəxslər və fərdi sahibkarlar verilən investisiya təşviqi sənədi əsasında əlavə dəyər vergisindən, əmlak və torpaq vergilərindən, o cümlədən 7 il müddətinə əldə etdiyi gəlirin (mənfəətin) 50 faizi məbləğində gəlir və mənfəət vergilərindən azaddır. Bundan əlavə, kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən çəkilən xərclərin optimallaşdırılması məqsədilə toxum və tinglərin, mineral gübrələrin, pestisidlərin idxalı və satışı da ƏDV-dən azad edilib. Sənayedə istehsalın təşviqi məqsədilə sənaye, yaxud texnologiyalar parkının rezidenti olan şəxslər 7 il müddətinə gəlir (mənfəət), əmlak və torpaq vergisindən, eləcə də İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında idxal edilən texnikaya, texnoloji avadanlıqlara və qurğulara görə ƏDV-dən azad olunublar.

Ekspertlərin fikrincə, Vergi Məcəlləsinə texnoparklarla bağlı edilmiş əlavə və dəyişikliklər iqtisadiyyatın inkişafına böyük təsir göstərəcək. Bu addımın atılması texnoparklarda həyata keçirilən layihələrin miqyasının artmasına, investorların cəlb olunmasına, yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye məhsullarının istehsalına, yeni iş yerlərinin yaradılmasına böyük stimul verəcək. 2016-2020-ci illərdə istehsal olunan qeyri-neft məhsullarının ixracının təşviqi məqsədilə Azərbaycan Prezidentinin «Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında» 2016-cı il 1 mart tarixli Fərmanında qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına faktiki ixrac olunmuş malın gömrük dəyərinin 3 faizi həcmində ixrac təşviqinin ödənilməsi nəzərdə tutulur. Ödənişli təhsilin ƏDV-dən azad olunması isə ölkədə təhsil sisteminin yeni mərhələyə keçməsi baxımından əhəmiyyətlidir. Vergi Məcəlləsinin müvafiq maddəsində edilmiş dəyişikliklərə əsasən, iştirak paylarının və səhmlərin satışı da ƏDV-dən azad olunub. Bu isə qiymətli kağızlar bazarının inkişafına öz müsbət təsirini göstərəcək. Ölkəmizdə körpələr evləri, körpələr evi-uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evləri 2014-cü ilin yanvarın 1-dən 10 il müddətinə hüquqi şəxslərin mənfəət vergisini və sadələşdirilmiş vergini ödəməkdən azad ediliblər.

> Ticarət şəbəkələri apardıqları əməliyyatları tam həcmdə qanunvericilikdə nəzərdə tutulmuş qaydada rəsmiləşdirdikləri və Vergi Məcəlləsində sahibkar üçün müəyyən edilən hüquqlardan düzgün istifadə etdikləri halda, onların əlavə vergi yükü yaranmır

### Yeni mexanizmlərin tətbiqi vergi yükünün azaldılmasına səbəb olacaq

Vergi qanunvericiliyində edilmiş ən son dəyişikliklər sırasında əsas məsələlərdən biri sadələşdirilmiş vergi tətbiq etməyə imkan verən həddin 120 min manatdan 200 min manatadək artırılmasıdır. Ticarət və ictimai iaşə sektorunun vergiyə cəlb olunmasında da vergi ödəyicilərinin xeyrinə mütərəqqi yenilik edilib - bu sahədə fəaliyyət göstərən vergi ödəyicilərinin vergi tutulan əməliyyatlarının həcmi 200 min manatlıq həddi keçdikdə həmin şəxslər ƏDV-nin tətbiqindən imtina etmək hüququ qazanaraq, sadələşdirilmiş vergi ödəyicisi kimi fəaliyyətlərini davam etdirə bilirlər. Lakin bu halda sadələşdirilmiş verginin dərəcəsi Bakıda 4 faiz, digər regionlarda 2 faiz olmaqla deyil, daha yüksək dərəcələrlə - ticarət sahəsində 6 faiz, ictimai iaşədə isə 8 faizlə hesablanır. Qeyd olunan mexanizmin tətbiqi vergi inzibatçılığının sadələşdirilməsi ilə yanaşı, bu sahədə fəaliyyət göstərən ödəyicilərin vergi yükünün azaldılmasına və vergi öhdəliklərinə könüllü əməletmə səviyyəsinin yüksəlməsinə xidmət edir.

İqtisadçı-ekspert Qulu İbrahimli hesab edir ki, vergi tutulan dövriyyəsi 200 min manatdan artıq olan vergi ödəyicisinin iqtisadi potensialı dövriyyəsi bu məbləğdən aşağı olan vergi ödəyicisi ilə müqayisədə daha yüksəkdir və onların eyni dərəcə ilə vergiyə cəlb edilməsi düzgün olmazdı. Digər tərəfdən, sadələşdirilmiş vergitutma rejimini seçən şəxslər ƏDV, gəlir, mənfəət və əmlak vergisinin ödənişindən azad olunur ki, bu da vergi ödəyicilərinə böyük güzəşt edilməsi deməkdir və beləliklə, dövriyyəsi böyük olan ticarət və ictimai iaşə obyektlərinə nisbətən yüksək vergi dərəcəsinin tətbiqi tamamilə məntiqlidir. Onun sözlərinə görə, bu gün Azərbaycanda vergi inzibatçılığı xeyli gücləndirilib, bərabər rəqabət mühiti yaradılıb və artıq himayədarlıq işə keçmir. Ticarət şəbəkələri apardıqları əməliyyatları tam həcmdə qanunvericilikdə nəzərdə tutulmuş qaydada rəsmiləşdirdikləri və Vergi Məcəlləsində sahibkar üçün müəyyən edilən hüquqlardan düzgün istifadə etdikləri halda, onların əlavə vergi yükü yaranmır.

**Rəşad SADIQOV**

## BİR CÜMLƏ - BİR XƏBƏR

«Standard and Poor's» reytinq agentliyi Azərbaycan Respublikasının uzunmüddətli və qısamüddətli xarici və milli valyutada suveren kredit reytinqlərini növbədənkənar qiymətləndirmə çərçivəsində dəyişməyərək, müvafiq olaraq, «BB+/B»səviyyəsində saxlayıb.

Mərkəzi Bank geniş iqtisadi islahatlar gündəliyi hazırlayıb və yaxın günlərdə Maliyyə Sabitliyi Şurasına təqdim edəcək.

Azərbaycanla Çin arasında imzalanan sazişə əsasən, Azərbaycanda verilən sənədlər və sertifikatlar Çində, Çində verilən sertifikatlar isə qarşılıqlı olaraq Azərbaycanda tanınacaq.

«Azərkosmos» ASC «Azərbaycanın davamlı inkişafı naminə Yer səthinin məsafədən müşahidəsi xidmətlərinin təşviqi» layihəsinin ikinci mərhələsini elan edib.

Türkiyə, Azərbaycan, Qazaxıstan və Qırğızıstan arasında elektron imzanın tanınması üçün tələb olunan məlumatların təmin edilməsi ilə bağlı razılıq əldə olunub.

İran İslam Respublikası ilə Azərbaycanın birgə iqtisadi layihəsi olan Neftçala avtomobil zavodu bu ilin avqust ayında istifadəyə veriləcək.

Avstraliyanın Pert şəhərində ölkəmizin iqtisadi və investisiya imkanlarının təqdimatı keçirilib.

# Pərakəndə ticarət dövriyyəsində artım müşahidə olunub

Bu ilin ötən dörd ayı ərzində pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 1,7 faiz üstələyərək 10,2 milyard manata bərabər olmuşdur. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ticarət dövriyyəsinin 50,6 faizini ərzaq məhsulları, içkilər və tütün məmulatları, 49,4 faizini qeyri-ərzaq məhsulları təşkil etmiş və satılmış məhsulların dəyəri 2016-cı ilin yanvar-aprel aylarının göstəricilərini real ifadədə, müvafiq olaraq, 0,6 faiz və 2,7 faiz üstələmişdir.

Hesabat dövründə məhsul bazarı aşağıdakı göstəricilərlə xarakterizə olunmuşdur:

| Məhsul qruplarının adları | Satışdan gəlir, milyon manatla | 2016-cı ilin yanvar-aprel aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **10 225,7** | **101,7** |
| o cümlədən: | | |
| ərzaq məhsulları | 4617,9 | 100,7 |
| içkilər və tütün məmulatları | 553,0 | 100,1 |
| toxuculuq məhsulları, geyim və ayaqqabılar | 1 814,4 | 103,2 |
| elektrik malları və mebellər | 653,4 | 101,9 |
| kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsulları | 78,4 | 102,0 |
| əczaçılıq və tibbi mallar | 134,2 | 101,5 |
| avtomobil yanacağı | 503,6 | 99,7 |
| digər qeyri-ərzaq məhsulları | 1 870,8 | 103,5 |

Hesabat dövründə istehlakçıların pərakəndə ticarət şəbəkələrində xərclədiyi vəsaitin 45,2 faizi ərzaq məhsullarının, 5,4 faizi içkilər və tütün məmulatlarının, 17,7 faizi toxuculuq məhsulları, geyimlər və ayaqqabıların, 6,4 faizi elektrik malları və mebellərin, 4,9 faizi avtomobil yanacağının, 1,3 faizi əczaçılıq və tibbi malların, 0,8 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 18,3 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunmuşdur.

2017-ci ilin yanvar-aprel aylarında istehlak məhsullarının 11,4 faizi hüquqi şəxs statuslu müəssisələr, 53,5 faizi fərdi sahibkarlar tərəfindən, 35,1 faizi isə bazar və yarmarkalarda satılmışdır. 2016-cı ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə hüquqi şəxslər üzrə 2,7 faiz, fərdi sahibkarlar üzrə 2,5 faiz artmış, bazar və yarmarkalar üzrə isə sabit qalmışdır.

Hesabat dövründə əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 263,5 manat və ya 2016-cı ilin müvafiq dövrünün göstəricisindən nominal ifadədə 36,0 manat çox olmuşdur. Ticarət şəbəkəsində bir vətəndaş orta hesabla hər ay 133,2 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 130,3 manatlıq qeyri-ərzaq məhsulları almışdır.

# Belarusda Azərbaycanın ilk Ticarət Evi fəaliyyətə başlayıb

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun ötən ilin noyabrında Azərbaycana rəsmi səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə müzakirə olunan bir sıra məsələlərlə yanaşı, qısa müddət ərzində hər iki ölkə arasında əmtəə dövriyyəsinin artırılması, Azərbaycanın idxalında Belarus məhsullarının payının çoxaldılması, Belarusda Azərbaycan Ticarət Evinin yaradılması, bu ölkədə istehsal edilməyən kənd təsərrüfatı və emal sənayesi məhsullarının Azərbaycandan idxal olunması barədə tapşırıqlar verilib.

Verilmiş tapşırıqların icrası olaraq, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Belarus Respublikasının paytaxtı Minsk şəhərində ümumi sahəsi 529 kvadratmetr olan Azərbaycan Ticarət Evinin təşkili işləri başa çatdırılıb. Ticarət Evinin idarə edilməsi məqsədilə «Azərbaycan Ticarət Evi» MMC yaradılaraq Belarus Respublikasında dövlət qeydiyyatına alınıb.

Minskdə hər iki ölkənin dövlət və hökumət nümayəndələrinin, o cümlədən Azərbaycan-Belarus Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvlərinin, həmçinin iş adamlarının iştirakı ilə Azərbaycan Ticarət Evinin açılışı olub.

Azərbaycan Ticarət Evi «Made in Azerbaijan» brendinin Belarus bazarında daha çox tanıdılması, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsi sahəsində fəaliyyət göstərəcək, Belarusda satışını təşkil edəcək, bu sahədə əlaqələndirməni həyata keçirəcək. Artıq Azərbaycan Ticarət Evi tərəfindən bu işlərə başlanılıb. Ticarət Evində daimi fəaliyyət göstərən sərgidə 25-dən çox Azərbaycan şirkətinin istehsal etdiyi müxtəlif növ məhsullar (şərab və konyak, meyvə şirələri, kompotlar, mineral sular, tərəvəz, mürəbbələr, turşular, konservlər, bitki yağları, çay, xalça, tekstil, ipək və kosmetika malları, elektrik avadanlıqları, plastik məmulatlar və s.) nümayiş olunur.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayev dövlət başçılarının ölkələrimiz arasında siyasi-iqtisadi əlaqələrin genişlənməsinə böyük önəm verdiyini vurğulayıb, Azərbaycan-Belarus əlaqələrinin qarşılıqlı dostluq və tərəfdaşlıq prinsipləri üzərində qurulduğunu, uğurla inkişaf etdiyini və əməkdaşlığın strateji tərəfdaşlıq səviyyəsində olduğunu diqqətə çatdırıb. Dövlət başçılarının qarşılıqlı rəsmi səfərləri, ölkə rəhbərlərinin şəxsi dostluq münasibətləri əlaqələrin genişlənməsinə böyük impuls verir. Ölkələrimiz arasında birgə investisiya layihələri uğurla icra olunur. Belə layihələrdən biri də Belarusda Azərbaycan Ticarət Evinin yaradılmasıdır.

Nazir Şahin Mustafayev qeyd edib ki, qısa müddətdə bu istiqamətdə işlər sürətlə aparılıb, hər iki ölkənin sahibkarlarının iştirakı ilə biznes forum, işgüzar görüşlər keçirilib. Minskdə 2016-cı ilin dekabrında keçirilmiş biznes forumda 33 anlaşma memorandumu və 2 müqavilə imzalanıb. Bu sənədlər Azərbaycan məhsulu olan tütün, pambıq, xalça, çay, meyvə-tərəvəz və onlardan emal edilmiş məhsulların, spirtli içkilərin (şərab, konyak və s.) Belarusa ixracını, həmçinin bu ölkədən Azərbaycana bir sıra məhsulların idxalını nəzərdə tutur. Bu müqavilələrin icrasına başlanıb. Şahin Mustafayev Minskin gözəl guşələrindən birində Azərbaycan Ticarət Evinin açılmasının iqtisadi əlaqələrin, investisiya əməkdaşlığının genişləndirilməsinə, ticarətin şaxələndirilməsinə töhfə verəcəyini vurğulayıb, göstərilən dəstəyə görə Belarus hökumətinə minnətdarlıq edib.

Belarusun Xarici İşlər naziri Vladimir Makey Azərbaycan nümayəndə heyətinin Belarusa səfərindən məmnunluğunu bildirib, belə səfərlərin ölkələrimiz arasında əməkdaşlığın inkişafında, iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsində əhəmiyyətini qeyd edib. Belarusun Azərbaycanla əməkdaşlığa xüsusi önəm verdiyini, qarşılıqlı əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini qeyd edən Vladimir Makey potensial əməkdaşlıq imkanlarına dair fikirlərini bölüşüb. Belarus Xarici İşlər naziri Azərbaycan Ticarət Evinin fəaliyyətə başlamasının iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın genişləndirilməsi baxımından mühüm addım olduğunu bildirib.

Azərbaycanın Belarus Respublikasındakı səfiri Lətif Qəndilov vurğulayıb ki, Azərbaycan artıq «Made in Azerbaijan» brendi ilə dünya bazarlarına çıxır. Belarusda açılan Azərbaycan Ticarət Evi buna bir misaldır. Səfir bildirib ki, Azərbaycan məhsulları Belarusda yaxşı tanınır və Azərbaycan Ticarət Evinin açılması Azərbaycan məhsullarının heç bir vasitəçi olmadan Belarusa birbaşa ixracı üçün gözəl imkan yaradır.

> Azərbaycan artıq «Made in Azerbaijan» brendi ilə dünya bazarlarına çıxır

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi Siyasət Komitəsinin sədri Ziyad Səmədzadə çıxış edərək bildirib ki, Belarus və Azərbaycan hər bir sahədə böyük uğurlar qazanıb. Azərbaycan Ticarət Evi iki ölkə arasında iqtisadi əlaqələri daha da genişləndirəcək və Azərbaycandan Belarusa mal ixracını artıracaq, ixracın strukturunun şaxələndirilməsinə əlavə stimul verəcək.

Tədbirdə «Azərbaycan Ticarət Evi» MMC ilə Belarus Respublikasının İstehlak Cəmiyyətləri İttifaqı («Belkoopsoyuz»), «Harvist Milk» MMC və «Praym Rezerv» MMC, həmçinin Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə Belarus Respublikasının Sənaye Müəssisələrinin Respublika Assosiasiyası («BelAPP») arasında əməkdaşlıq haqqında anlaşma memorandumları imzalanıb.

Açılış mərasimində Azərbaycanın müstəqillik illərində qazandığı uğurlara həsr olunan film nümayiş edilib, Azərbaycan incəsənət ustalarının ifasında muğam və milli musiqimiz səsləndirilib.

Sonra tədbir iştirakçıları Azərbaycan Ticarət Evi və burada daimi fəaliyyət göstərən Azərbaycan məhsullarının sərgisi ilə tanış olublar. Azərbaycan nümayəndə heyəti Belarusa səfər çərçivəsində həmçinin Azərbaycan investisiyalı Logistika Mərkəzində olub.

# «Vergilər uşaqların gözü ilə» rəsm və inşa müsabiqəsi

5 saylı Ərazi Vergilər İdarəsinin tabeliyində olan şəhər və rayonlarda «1 İyun - Uşaqları Beynəlxalq Müdafiə Günü» münasibətilə «Vergilər uşaqların gözü ilə» rəsm və inşa müsabiqəsi keçirilmişdir.

5 saylı Ərazi Vergilər İdarəsinin direktoru Ədalət Fərəcovun sözlərinə görə, bu cür müsabiqələrin keçirilməsi uşaqların dövlətçilik anlayışlarının genişlənməsinə, büdcə və vergilər haqqında biliklərinin artmasına imkan yaradır. Vergilər Nazirliyi gənc nəslin vergi haqqında biliklərini artırmaq, gələcəyin potensial vergi ödəyicilərinə vergi mədəniyyəti aşılamaq istiqamətində tədbirləri bundan sonra da davam etdirəcəkdir.

Müsabiqələrdə iştirak edən şagirdlər müxtəlif hədiyyələrlə mükafatlandırılmış, qaliblərə diplomlar təqdim olunmuşdur.



# Elektron xidmətlər biznes mühitinin təkmilləşdirilməsinə şərait yaradır

Bu gün Azərbaycanda sahibkar vergi orqanlarına gəlmədən bütün öhdəliklərini internet üzərindən yerinə yetirə bilir. Vergi bəyannamələrinin təqdim edilməsi, vergi öhdəliklərinin icrası, vergi orqanları ilə təmas imkanı verən bütün proseslər elektronlaşdırılıb. Hazırda vergi ödəyicilərinin 93 faizi vergi bəyannamələrini elektron şəkildə təqdim edir.

«ASAN imza» layihəsi mobil telefondan istifadə olunmaqla dünyanın istənilən yerindən sahibkara müqavilələr imzalamağa, vergi öhdəliklərini idarə etməyə və yerinə yetirməyə imkan verir. Ölkəmizin bu təcrübəsi Avropa Parlamentində də uğurla təqdim edilib. «ASAN imza» və «E-audit» kimi mühüm layihələr yalnız regionda deyil, ümumiyyətlə, postsovet məkanında ilk dəfə Azərbaycanın vergi sistemində reallaşdırılıb.

ƏDV inzibatçılığının təkmilləşdirilməsi və ƏDV-dən yayınma hallarının qarşısının alınması məqsədilə ƏDV depozit hesabının, elektron vergi hesab-fakturalarının tətbiqi, banklarla real vaxt rejimində inteqrasiya (bank hesablarının «onlayn» rejimdə açılması, şəhadətnamə-dublikatın «onlayn» rejimdə göndərilməsi), onlayn kargüzarlığın təmin edilməsi, vətəndaşların internet üzərindən videoqəbulu, vergilərin elektron qaydada ödənişinin aparılması sisteminin tətbiqi kimi innovativ-texnoloji yeniliklər Azərbaycanın vergi xidmətini ən müasir texnologiyalardan maksimum istifadə edən dövlət qurumu kimi tanıdıb.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin Qeydiyyat- uçot şöbəsinin rəhbəri Nigar Alimova bildirmişdir ki, hazırda vergi ödəyicilərinə 65 növ elektron xidmət göstərilir. Bu göstəriciyə görə nazirlik respublikamızda dövlət orqanları arasında öndədir.

Qeyri-neft sektorunun inkişafına xüsusi diqqət ayrılması, insanların xırda və orta sahibkarlığa təşviq edilməsi məqsədilə görülən işlərin mühüm komponentlərindən biri də məhz vergi qanunvericiliyinə müvafiq olaraq yeni iş qurmaq üçün hüquqi prosedurların evdə və ya ofisdə həyata keçirilməsi imkanının yaradılmasıdır. Bu imkanları öyrənmək və tətbiq etmək üçün Vergilər Nazirliyinin saytındakı «Elektron xidmətlər» (http://www.taxes.gov.az/modul.php?name=e-xidmetler) bölməsinə daxil olmaq kifayətdir.




> Vergilərin elektron qaydada ödənişinin aparılması sisteminin tətbiqi və digər innovativ-texnoloji yeniliklər Azərbaycanın vergi xidmətini ən müasir texnologiyalardan maksimum istifadə edən dövlət qurumu kimi tanıdıb

N.Alimovanın sözlərinə görə, nazirliyin internet ünvanına girməklə sırada doqquzuncu olan «Kommersiya hüquqi şəxslərin onlayn qeydiyyatı» qaydalarını yükləməklə qanunvericilik bazasının verdiyi imkanlardan yararlanmaq mümkündür. Hüquqi şəxslərlə yanaşı, fiziki şəxslərin də elektron qaydada qeydiyyata alınması, eləcə də bank idarələrində hesabların açılması mümkündür. Biznes fəaliyyətinə başlamaq istəyən hər bir şəxs ofisindən və ya evindən çıxmadan öz bank hesabını aça bilər. Elektron xidmətlərdən istifadə etməklə «ƏDV məqsədləri üçün onlayn qeydiyyat», «Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn qeydiyyatı», «Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) onlayn qeydiyyatı», «Nəzarət-kassa aparatının onlayn qeydiyyatı və qeydiyyatdan çıxarılması» və bir sıra digər prosedurları da yerinə yetirmək olar. Fəaliyyətə başlamaqla yanaşı, fəaliyyətin dayandırılması ilə bağlı prosedurları da bu xidmətdən istifadə etməklə reallaşdırmaq mümkündür. Elektron xidmətlər sırasına Vergilər Nazirliyinə edilən müraciətlərin izlənməsi də daxildir.

Uçot-qeydiyyatla bağlı məlumata gəlincə, bu ilin 1-ci rübündə elektron xidmətlərdən 149.293 dəfə istifadə olunmuşdur.

**FƏXRİYYƏ**

# Vətəndaşların sosial rifahının yüksəldilməsi məqsədilə...

*Dövlət başçısı «Güzəştli mənzil» sistemi haqqında Əsasnamə»ni təsdiq edib*

Əsasnamədə mənzilləri güzəştlə əldə etmək hüququ olan şəxslər, habelə «Güzəştli mənzil» elektron sistemi vasitəsilə mənzillərin əldə olunması şərtləri və mexanizmi müəyyənləşdirilib. «Güzəştli mənzil» elektron sisteminin «Elektron hökumət» portalına inteqrasiya edilməsi mənzilləri güzəştlə əldə etmək hüququ olan vətəndaşların vaxt itirmədən elektron qaydada qeydiyyatının aparılmasına və bu prosesdə insan faktorunun minimuma endirilməsinə imkan verəcək. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən portal vasitəsilə müvafiq dövlət orqanlarının və qurumlarının informasiya sistemlərindən mənzili güzəştlə əldə etmək istəyən şəxsin şəxsiyyətini təsdiq edən sənəd, nikah (və ya nikahın pozulması) haqqında şəhadətnamə, ailə tərkibi və digər məlumatların elektron sistemə ötürülməsi təmin edilir. Bunlarla yanaşı, mənzili güzəştlə əldə etmək istəyən şəxsin (birgə borcalanın) iş yerini təsdiq edən məlumatlar da elektron sistemə ötürülməlidir.

İqtisadçı ekspert İldırım Qurbanovun sözlərinə görə, dövlət başçısının ölkə vətəndaşlarının sosial rifahının yüksəldilməsi istiqamətində qarşıya qoyduğu məqsədlərdən biri də insanların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasıdır: «Ölkə əhalisinin sayının artması vətəndaşlarımızın mənzilə tələbatının təmin olunması məsələsini daha da aktuallaşdırır. Xüsusilə də aztəminatlı vətəndaşların, gənc ailələrin mənzil probleminin həlli sosial-iqtisadi inkişafda prioritet vəzifə kimi müəyyən edilib. Təsdiq olunmuş qaydalar vətəndaşların güzəştli şərtlərlə mənzilə sahib olmasını təmin etməklə yanaşı, bu sistemin tam şəffaf şəkildə fəaliyyət göstərməsinə şərait yaradacaq».

İ.Qurbanovun sözlərinə görə, güzəştli şərtlərin əsas mahiyyəti ondan ibarətdir ki, satılacaq mənzillərin qiyməti həmin ərazidəki orta bazar qiymətindən aşağı olacaq: «Eyni zamanda, vətəndaşlar mənzilin dəyərini «Azərbaycan İpoteka Fondu» Açıq Səhmdar Cəmiyyətinin güzəştli ipoteka krediti vasitəsilə də 3 ildən 30 ilədək müddət ərzində aylıq ödəmək imkanı əldə edəcəklər. Xüsusiləq qeyd etmək lazımdır ki, mənzillər tam təmirli və mətbəx mebeli ilə təchiz olunmuş vəziyyətdə təhvil veriləcək».

Qaydaya əsasən, mənzilləri güzəştlə əldə etmək hüququ «Azərbaycan İpoteka Fondu» ASC-nin vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası»nın 3.2-ci bəndində nəzərdə tutulmuş şəxslərə verilir. Həmin bəndə uyğun olaraq, aşağıdakı şəxslər güzəştli ipoteka kreditindən istifadə etmək hüququna malikdirlər:

♦ **Gənc ailənin üzvü olan aşağıdakı şəxslər:**

- şəhid ailəsinin üzvü (əri/arvadı, övladları);
- Milli Qəhrəman (özü, əri/arvadı, övladları);
- məcburi köçkün və ya ona bərabər tutulan şəxs;
- ən azı 3 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxs;
- ən azı 5 il dövlət ümumtəhsil məktəbində müəllim işləyən şəxs;
- fəlsəfə doktoru elmi dərəcəsi olan şəxs;
- idman sahəsində xüsusi xidmətləri olan şəxs (fəxri bədən tərbiyəsi və idman xadimi, ölkə miqyaslı yarışların qalibi (I yer), beynəlxalq miqyaslı yarışların mükafatçısı (I, II və ya III yer).



Bununla yanaşı, ailə vəziyyətindən asılı olmayaraq, aşağıdakı şəxslər də güzəştli ipoteka kreditindən istifadə etmək hüququna malikdirlər:

- elmlər doktoru elmi dərəcəsi olan şəxs;
- ən azı 15 il dövlət qulluğunda qulluq edən şəxs;
- ən azı 3 il hərbi xidmətdə olan (müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulardan başqa), həmçinin ehtiyata və istefaya buraxılmış Azərbaycan Respublikasının hərbi qulluqçuları («Hərbi vəzifə və hərbi xidmət haqqında» Azərbaycan Respublikası Qanununun 41.0.6-cı, 41.0.7-ci, 41.0.8-ci, 41.0.10-cu, 42.0.3-cü, 42.0.4-cü və 42.0.5-ci maddələrində nəzərdə tutulan hallarda ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçular istisna olmaqla);
- ən azı 3 il daxili işlər orqanlarında xidmət keçən xüsusi rütbəsi olan şəxs.

Bu kateqoriyalara aid edilən şəxslər sosial ipotekadan yararlanmaq hüququna malik olmaqla yanaşı, təsdiq edilmiş yeni Qaydaya əsasən, sosial mənzillərin orta bazar qiymətindən aşağı qiymətə əldə edilməsi hüququna da sahib olurlar.

Ekspertin bildirdiyinə görə, qeyd olunan şəxslər «Güzəştli mənzil» sistemi vasitəsilə müraciət edib qeydiyyatdan keçdikdən sonra mənzil seçimini həyata keçirə biləcəklər: «Güzəştli mənzil» elektron sistemi ikipilləli olacaq. İlk növbədə, müraciət edən vətəndaşın təqdim edəcəyi məlumatlar əsasında təsdiq olunmuş kateqoriyaya aid olub-olmadığı yoxlanılacaq. Müraciətə 5 iş günü ərzində baxılacaq və qeydiyyat haqqında qərar qəbul ediləcək. Növbəti mərhələdə isə satışa çıxarılan mənzillər haqqında elan dərc edildikdən sonra sosial mənzil almaq hüququ olan və qeydiyyatdan keçmiş şəxs elektron sistem vasitəsilə mənzili ünvan əsasında otaq sayı və mərtəbə göstərilməklə seçərək əldə edə biləcək».

Qaydaya əsasən, yalnız layihə üzrə tikinti işlərinin 30 və daha çox faizi yerinə yetirilmiş binaların mənzillərinin satışa çıxarılması barədə elan verilə bilər. Elan satışın başlanmasına ən azı 30 gün qalmış veriləcək.

**F. İKRAMQIZI**

## 2017-ci ilin iyun ayı ərzində vergi orqanına təqdim olunmalı bəyannamələr və ödənilməli vergilər barədə

### YADDAŞ

**2017-ci ilin iyun ayına görə vergi ödəyiciləri tədiyyəçici olduğu**

- Əlavə dəyər vergisi bəyannaməsini,
- Aksiz bəyannaməsini,
- Yol vergisi bəyannaməsini,
- Mədən vergisi bəyannaməsini,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

cari ilin **iyun ayının 20-dən** gec olmayaraq vergi orqanına **təqdim etməli** və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsi cari ilin iyun ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

- **Muzdlu işlə əlaqədar 2017-ci ilin may ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi** cari ilin iyun ayının 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti il yanvarın 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 2-ci rüb üzrə bəyannaməni iyulun 20-dən gec olmayaraq təqdim edirlər).

- **Xüsusi notariusların 2017-ci ilin may ayı üzrə hesabladıqları gəlir vergisi** cari ilin **may ayının 22-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2-ci rüb üzrə bəyannamə iyulun 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Maliyyə Bazarlarına Nəzarət Palatası kapitallaşma problemi ilə üzləşən **5** bankı nəzarətə götürüb.
- 2017-ci ilin yanvar-aprel aylarında ölkə sənayesində **12,6 milyard** manatlıq sənaye məhsulu istehsal edilib. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı **2,8%** artıb.
- Mayın 31-dən iyunun 3-dək Bakı Ekspo Mərkəzində Xəzəryanı regionda energetika sektorunun ən böyük tədbiri olan XXIV Beynəlxalq Xəzər Neft və Qaz (Caspian Oil&Gas 2017) sərgi və konfransında **30** ölkədən **289** şirkət iştirak edəcək.
- 2017-cı ilin 4 ayı ərzində 2016-cı ilin eyni dövrü ilə müqayisədə yük daşınmasında **10,9%**, sərnişin daşınmasında isə **34,6%** artım müşahidə olunub.
- «Azexport.az» portalına 2017-ci ilin 4 ayı ərzində **42** ölkədən ixrac sifarişləri daxil olub. Ümumilikdə bu ilin 4 ayı ərzində portala **111 milyon** ABŞ dollarından çox ixrac sifarişi daxil olub.
- 2017-ci ilin 4 ayı ərzində iqtisadiyyatın qeyri-neft sektorunda istehsal olunmuş əlavə dəyər əvvəlki ilin müvafiq dövrünə nisbətən **1,9%** artıb.

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Yüksək gəlirli şəxslərin vergiyə cəlb olunması barədə təlimat

Beynəlxalq Valyuta Fondu vergi orqanları əməkdaşları üçün yüksək gəlirli şəxslərin vergi öhdəliklərinə əməl etmələrinə təminat yaradan səmərəli proqramların həyata keçirilməsinə dair təlimat nəşr etmişdir. Təlimatın texniki qeydlər hissəsində bu məsələlər nəzərdə tutulur: yüksək gəlirli şəxslər üçün xarakteristika; bu şəxslər nə üçün vergi orqanlarında maraq oyadırlar; yüksək həyat şərtlərinə malik şəxslərlə fərdi uyğunluğa dair proqramı necə tərtib etmək olar. Sənəddə həmçinin uyğunluq risklərinin idarə olunmasından istifadə modelinin mümkünlüyü məsələsinə də baxılır.

Təlimatla bağlı məruzədə göstərilmişdir ki, bütün dünya üzrə yüksək gəlir əldə edən 34 milyona yaxın şəxs 2015-ci ildə ən azından adambaşına 1 milyon dollar sərvət toplamağa nail olmuşdur. Bu insanlar Yer kürəsinin 0,7 faizini təşkil etsələr də, dünyadakı sərvətlərin 45 faizinə sahibdirlər.

# BƏƏ-də qazlı və energetik içkilərə vergi tətbiq edilir

Birləşmiş Ərəb Əmirliklərinin hökuməti (BƏƏ) dünya bazarında neftin qiymətinin ucuzlaşması ilə bağlı büdcədə yaranan kəsirin aradan qaldırılması üçün müəyyənləşdirilmiş iqtisadi tədbirlər çərçivəsində qazlı içkilərə 50%, energetik içkilərə isə 100% vergi tətbiq edəcək. Alkoqolsuz içkilər üçün tətbiq olunan yığımlardan fərqli olaraq, yeni vergi məhsulun qiymətinə satıldığı yerdə əlavə ediləcək. Qazlı içkilər üçün vergi bu ilin son rübündən qüvvəyə minəcək. 2018-ci ilin yanvarından isə BƏƏ-nin ərazisində 5% dərəcəsi ilə əlavə dəyər vergisi tətbiq ediləcək. Ölkədə ilk dəfə olaraq bu verginin ümumi dərəcəsi mövcud olacaq. Bu vaxta qədər isə mallara həmin vergi yalnız ölkə sərhədindən keçirilərkən tətbiq edilirdi. Bütün bunlara baxmayaraq, yüzə yaxın adda ərzaq məhsulu və içki hələ də əlavə dəyər vergisindən azaddır.

# Fransa və Almaniya vergi qanunvericiliyini uyğunlaşdıra bilərlər

Bu il hər iki ölkə Avropa İttifaqına üzv dövlətlərin inteqrasiyasının gücləndirilməsi çərçivəsində korporativ verginin uyğunlaşdırılması planının üzərinə qayıda bilər. Fransa və Almaniyanın maliyyə nazirlərinin bu bəyanatı yeni seçilmiş Prezident Emmanuel Makronun iqtisadi siyasət kursunu əks etdirir. Makron Avropadaxili inteqrasiyaya sadiq olduğunu dəfələrlə bəyan etmişdir.

Əvvəlcə bu ideya Almaniyanın maliyyə naziri Volfqanq Şobelye və onun fransalı həmkarı Pyer Moskovisi tərəfindən ortaya atılmışdı. Onlar hələ dörd il bundan əvvəl vergi qanunvericiliyini bir-birinə uyğunlaşdırmaq və vergidən yayınmaya qarşı mübarizəni gücləndirmək niyyətində olduqlarını ifadə etmişdilər. O vaxtdan bəri bu dövlətlərin hökumətləri həm fiziki şəxslər, həm də iri biznes üçün vergi standartlarının ümumi sistemi üzərində iş aparırlar.

## Xəbər lenti

**Hindistan**ın gəlirlər naziri bildirmişdir ki, ölkənin informasiya texnologiyaları sistemləri mal və xidmətlər üçün bu ilin iyul ayından bütün ölkə ərazisində qüvvəyə minəcək vergi qaydalarını lazım olan səviyyədə idarə etməyə hazırdır.

**Lüksemburq** hökumətindən xarici şirkətlərin vergiyə cəlb edilməsi sahəsində korporativ vergi islahatları keçirmək tələb olunur. Bu barədə Beynəlxalq Valyuta Fondunun açıqlamasında qeyd edilir.

**Almaniya** hökumətinə Beynəlxalq Valyuta Fondu tərəfindən ölkədə məşğulluğu artırmaq məqsədilə işçilərin vergi yükünü əsaslı şəkildə azaltmaq tövsiyə olunmuşdur. Tövsiyə sənədində qeyd edilmişdir ki, Almaniyada keçən il proqnozlaşdırılandan artıq vergi daxilolmaları islahatların həyata keçirilməsi üçün müsbət amildir.

**Şeyşel adaları** hökuməti vergi rejimində dəyişiklik edilməsi ilə bağlı qanun layihəsini təqdim etmişdir. Dəyişiklik fərdi gəlir vergisinə aiddir. Burada işçilərin mükafat kimi aldıqları 733 dollaradək məbləğdə 13-cü məvacibin vergidən azad edilməsi nəzərdə tutulur. Məbləğin bu həddən artıq hissəsinə isə 15 faizlik vergi tətbiq olunacaq.

**Yaponiya və Rusiya** hökumətləri hələ 1986-cı ildə - SSRİ dövründə imzalanmış vergi sazişinə yenidən baxmaq niyyətində olduqlarını bildirmişlər. Yaponiyanın Baş naziri Sindzo Abe Moskvaya səfəri zamanı demişdir: «Yeni saziş ikiqat vergitutmanın, eləcə də vergidən yayınmanın qarşısının alınması üçün qarşılıqlı fəaliyyət mexanizmlərini nəzərdə tutacaq və ölkələrimiz arasında investisiya qoyuluşlarına müsbət təsir göstərəcək».

**Ekvador** İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) vergitutma məqsədləri üçün şəffaflıq və informasiya mübadiləsi üzrə Qlobal Forumuna qoşulan 140-cı üzv dövlət olmuşdur.

**ABŞ** Prezidenti tərəfindən irəli sürülən korporativ vergi dərəcələrinin 15%-ə qədər aşağı salınması planı İsrailin texnologiya sahəsində fəaliyyət göstərən şirkətlərini ABŞ-a köçmək barədə düşünməyə sövq edir. Onlar öz ölkələrində 24% dərəcə ilə korporativ vergi ödəyirlər.

# Çin və Gürcüstan arasında azad ticarət sazişi imzalanıb



Sazişə əsasən, ticarətlə bağlı indiyə qədər tətbiq edilən tariflərin əksəriyyəti qarşılıqlı şəkildə aradan qaldırılacaq. Mayın 14-də imzalanmış azad ticarət sazişi Çin ilə Avrasiya qitəsini təmsil edən dövlət arasında bu qəbildən olan ilk sənəddir. Gələn ilin əvvəlindən qüvvəyə minəcək sazişin şərtlərində göstərilir ki, Gürcüstan qarşıdakı beş il ərzində tarif siyahısı üzrə tariflərin 96,5 faizini, Çin isə Gürcüstandan gətirilən mallara tətəbiq olunan tariflərin 93,9 faizini ləğv edəcək.

Xatırladaq ki, 2014-cü ildə bu iki ölkə arasındakı ticarət dövriyyəsi 960 milyon dollar, Gürcüstandakı birbaşa qeyri-maliyyə investisiyasının həcmi isə 530 milyon dollar təşkil edirdi. Beləliklə, Gürcüstanda ticarət tərəfdaşlığının və yatırılan investisiyaların həcminə görə Çin üçüncü yeri tutur.

# Belçikadan vərəsəlik vergisinin ləğv edilməsi tələb olunub

Avropa Komissiyası Belçika hökumətinə Valloniya regionunda tətbiq olunan vərəsəlik vergisinin ləğvi ilə bağlı xahişlə müraciət etmişdir. Burada məqsəd həmin verginin tətbiqinin Avropa İttifaqının fəaliyyəti ilə bağlı sazişə uyğunlaşdırılmasıdır.

Valloniya regionunun mövcud qanunvericiliyinə əsasən, miras qoyan şəxs Belçikada yaşadığı halda, vərəsəlik vergisindən azad olunur. Bununla belə, komissiyanın rəyinə əsasən, əgər miras qoyan şəxs Avropa iqtisadi zonası daxilində başqa bir ölkədə yaşamışdırsa, belə bir istisna nəzərdə tutulmur. Komissiya belə hesab edir ki, Belçikada yerləşən və sağlığında bu ölkədə yaşamamış şəxsə aid olan əmlakın vergidən azad olunması Avropa İttifaqının fəaliyyəti ilə bağlı sazişin 45, 49 və 63-cü maddələri ilə ziddiyyət təşkil edir - bu cür istisna Belçika rezidentlərinə verilə bilər.

Sorğu Belçika hökumətinə rəsmi bildiriş şəklində göndərilmişdir. Bu, Avropa İttifaqına üzv dövlətlə bağlı qanun pozuntusu üzrə işin hazırlanmasının ilkin mərhələsi deməkdir. Məsələni aydınlaşdırmaq üçün Belçikaya iki ay vaxt verilmişdir.

# İstehsalçılar hibrid avtomobillərin satışına vergini azaltmağı xahiş ediblər

Hindistanda fəaliyyət göstərən avtomobil istehsalçıları hökumətdən hibrid avtomobillərin satışı üçün tətbiq olunan vergini azaltmağı xahiş etmişlər. Onlar hökumətin bu sahə üçün nəzərdə tutduğu vergi dərəcəsinin ekoloji baxımdan əlverişli avtomobil sənayesinə ciddi ziyan vura biləcəyindən ehtiyatlandıqlarını bildirmişlər.

Hindistan hökumətinin isə məsələ ilə bağlı mövqeyi belədir ki, iyul ayının 1-dən qüvvəyə minəcək unifikasiya olunmuş vergi rejimi hibrid nəqliyyat vasitələrinin satışına da tətbiq edilməli və 43 faiz dərəcəsi ilə vergi tutulmalıdır. Hazırda hibrid avtomobillərin satışına vergi 29 faiz dərəcə ilə tətbiq olunur.

Analitiklərin ehtimallarına əsasən, avtomobil sənayesinin «Suzuki», «Mahindra» və «Toyota» kimi nəhəngləri də daxil olmaqla, Hindistandakı aparıcı şirkətlər hibrid avtomobillərin satışına tətbiq edilən verginin indiki səviyyədə saxlanılmasına nail ola biləcəklər.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Misirin şimalında, Nil çayı boyunca şimali Sudana qədər uzanan tarixi bölgə; 2.Azərbaycanda bitən bitki, meyvəsi plovun bəzəyi hesab edilir; 3.Azərbaycan Premyer Liqasında mübarizə aparan futbol klubu; 4.Azərbaycanlı xanım jurnalistin adı; 5.«Qayınana» bədii filmində (1978) aktrisa Tanilla Əhmərovanın canlandırdığı obraz; 6.Səyahət edən, fiziki dünyadan əl çəkərək mənəvi dünyada yaşayan, sufiliyi təbliğ edən ruhani insan; 9.Taxıllar fəsiləsindən bitki cinsi; 13.Lerik rayonunda kənd; 15.1994-cü ildə yaranmış və 1996-2004-cü illər arası Əfqanıstanda hərəkat; 16.İrland əsilli ABŞ rəssamının soyadı; 17.Ərazisinə görə Avrasiyadan sonra ikinci böyük materik; 18.Yer kürəsinin atmosfer qatına daxil olarkən görünən iz buraxan xırda səma cisimləri; 20.Azərbaycanlı fantast yazıçının adı; 21.İnsanın könüllü surətdə, məcbur edilmədən məşğul olduğu və böyük zövq aldığı fəaliyyət.

**Soldan sağa:** 1.Adı Nizami Gəncəvinin «Sirlər xəzinəsi» əsərində çəkilmiş İran padşahı; 5.Kalsiumla zəngin qida məhsulu; 7.Vahid mərkəzdən idarə edilən, vahid kommuna uğrunda aparılan inqilabi hərəkat və həmin hərəkatın üzvü; 8.Qayıqçı kürəyi; 10.Aldatmaq məqsədi ilə deyilən əsilsiz söz; 11.Latın Amerikası, İspaniya və ABŞ-ın cənub-qərb regionlarında məşhurlaşmış meksikalıların xalq musiqisi janrı; 12.Amerika ədəbiyyatında romantik cərəyanın yaradıcılarından olan yazıçılardan birinin adı; 14.Hindistanda və Şərqin bəzi başqa ölkələrində: əsli-nəsəbi, ata-baba peşələri və hüquqi vəziyyətləri cəhətindən bir-biri ilə bağlı olan qapalı ictimai qrup, təbəqə, silk; 19.Mərhumun cəsədinin olmadığı yerdə ucaldılan başdaşı; 21.Almaniyada çay; 22.Perunun paytaxtı; 23.Afrikada dövlət; 24.Mənşə və bəzi irsi xüsusiyyətlərinə görə bir olan tarixən təşəkkül tapmış insan qrupu; 25.Həmişə bir yerdə olan, yerini dəyişməyən, bir yerdən başqa yerə köçürülməyən idarə, əşya.



*Latın Amerikası, İspaniya və ABŞ-ın cənub-qərb regionlarında məşhurlaşmış meksikalıların xalq musiqisi janrı*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Məkruh; 2.Omnibus; 3.Akula; 4.Disput; 5.Nəvai; 6.Muskat; 9.Loto; 13.İnşa; 15.Kenitra; 16.İquasu; 17.Safari; 18.Fleyta; 20.Mufta; 21.Ştamp. **Soldan sağa:** 1.Miokardit; 5.Nom; 7.Konfutsi; 8.Kvas; 10.Umbra; 11.Utopiya; 12.Eskiz; 14.Toska; 19.«Qamaşma»; 21.Şinel; 22.Alfa; 23.Sabantuy; 24.Upa; 25.Olimpiada.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev, anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu, redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 15000**

idman

# Respublika Günü münasibətilə veloyürüş

**Naftalan şəhərində 28 May - Respublika Gününə həsr olunmuş veloyürüş keçirilib. Yürüş Azərbaycan Velosiped İdmanı Federasiyasının, Naftalan Şəhər İcra Hakimiyyətinin, şəhər gənclər və idman idarəsinin, qadınlardan ibarət «Ladies on Bikes» həvəskar velosiped klubunun təşkilatçılığı ilə baş tutub.**



Veloyürüşün açılış mərasimində çıxış edən Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Natiq Aslanov və Azərbaycan Velosiped İdmanı Federasiyasının baş katibi Fərhad Əliyev tədbirin əsas məqsədinin gənclərin bu idman növünə marağının artırılması olduğunu qeyd ediblər. İcra hakimiyyətinin başçısı veloyürüşün Naftalanda təşkil edilməsinə görə federasiya rəhbərliyinə təşəkkürünü bildirib.

Müxtəlif yaş qrupları üzrə yüzdən çox velosipedçinin qatıldığı yürüşə Heydər Əliyev Meydanından start verilib. Veloyürüşdə fərqlənən iştirakçılara Azərbaycan Velosiped İdmanı Federasiyasının, Naftalan şəhər gənclər və idman idarəsinin diplom və hədiyyələri təqdim edilib.

Yeri gəlmişkən, Ukraynanın paytaxtı Kiyevdə Beynəlxalq Velosipedçilər İttifaqının 1.2 kateqoriyalı «Horizon Park» yarışlarına yekun vurulub. Üç günlük yarış Azərbaycanın «Synergy Baku» velosiped komandasının növbəti xalları qazanması ilə əlamətdar olub. Yığma komandamızın üzvlərinin yarışlarda qazandıqları xallar onların öz reytinqləri ilə yanaşı, milli komandamızın da aktivinə əlavə olunur. Hazırda Beynəlxalq Velosipedçilər İttifaqının 112 ölkənin yer aldığı reytinq sıralamasında Azərbaycan 832 xalla 38-ci yerdədir.

# Könüllü vergi ödəyicisi, yoxsa...

İspaniyanın Madridin «Real» klubunun portuqaliyalı hücumçusu Kriştianu Ronaldu öz vergi borcu üzrə könüllü olaraq 6 milyon avro ödəyib. Buna baxmayaraq, vergi orqanları futbolçudan borcun 15 milyon avro təşkil edən bütün məbləğinin bütünlüklə ödənilməsini tələb edirlər. Ronaldu barəsində araşdırma müvafiq materiallar «Football Leaks» jurnalında dərc olunmamışdan əvvəl - 2015-ci ildə başlayıb. Forvardı vergi ödəməkdən yayınmaq üçün offşor sistemlərdən istifadə etməkdə şübhəli bilirdilər. Ötən ilin dekabr ayında kütləvi informasiya vasitələri məlumat yaymışdılar ki, Ronaldu 150 milyon avro məbləğində verginin ört-basdır edilməsində şübhəli bilinir.

# Dünyanın ən yaxşı yeni stadionu



Qətərin paytaxtı Dohada Dünya Stadionlar Konqresi keçirilib. Tədbirin sonunda müxtəlif nominasiyalar üzrə dünyanın ən yaxşı stadionları adına layiq görülən arenalar mükafatlara layiq görülüb.

Bakı Olimpiya Stadionu «Dünyanın ən yaxşı yeni stadionu» nominasiyasında mükafatla təltif edilib. Stadionun tikintisində iştirak edən «TEKFEN İnşaat» şirkəti də mükafata layiq görülüb. Konqresdə müxtəlif kateqoriyalar üzrə Moskvadakı «VTB Arena», Barselonadakı «Kamp Nou», Aşqabad Olimpiya Stadionu və Birləşmiş Ərəb Əmirliklərindəki «Həzza Bin Zayed» stadionu da qalib elan edilib.

Qeyd edək ki, müsabiqənin münsiflər heyəti məşhur tikinti mütəxəssisləri Filip Herpel, Mark Fenvik və Kris Daytdan ibarət olub.

# Dünya çempionatına getmək üçün... Avropa sınağı

Kişi boksçulardan ibarət Azərbaycan milli komandasının qatılacağı Avropa çempionatı mundiala seçim xarakteri daşıyacaq. İyunun 14-dən 26-dək Ukraynanın Xarkov şəhərində təşkil olunacaq qitə birinciliyi dünya çempionatındakı təmsilçilərin adlarına aydınlıq gətirəcək. Avqustun 25-dən sentyabrın 3-dək Almaniyanın Hamburq şəhərində keçiriləcək dünya çempionatına seçim sisteminə əsasən «köhnə qitə»dən mundiala yollanacaq boksçular yalnız Xarkovda müəyyənləşəcək. Qaydalara görə, dünya çempionatında iştirak hüququ 5 qitənin birinciliyində veriləcək.




Hamburqda 10 çəki dərəcəsinin hərəsində 28 boksçu olmaqla, ümumilikdə 280 boksçu mübarizə aparacaq. Hər çəki dərəcəsində 1 idmançı ev sahibi Almaniyanı təmsil edəcəksə, daha 1 yeri Beynəlxalq Boks Federasiyası (AİBA) müəyyənləşdirib, həmin boksçuya «wild card» verəcək. Digər 26 iştirakçı isə qitə çempionatları arasında bölüşdürülüb.

Ən çox yer Avropa çempionatına verilib ki, «köhnə qitə» hər çəki dərəcəsində 8 idmançı ilə təmsil olunmaq hüququna malikdir. Bu isə o deməkdir ki, Xarkovda 1/4 finala çıxacaq hər bir boksçu mundiala vəsiqəni təmin edəcək. Yığmamızın dünya çempionatındakı iştirakçıları da Avropa birinciliyində yarımfinalın 1 addımlığınadək irəliləyəcək boksçulardan ibarət olacaq. 1/4 finala yüksəlməyən idmançılar isə «wild card»a ümid edəcəklər. Dünya çempionatındakı digər yerlər 4 qitə arasında bölüşdürülüb. Asiya və Amerikanın hərəsi hər çəkidə 6, Afrika 4 və Okeaniya 2 idmançı ilə təmsil olunacaq.

Qeyd edək ki, milli komandamız Avropa çempionatına 10 boksçu ilə yollanacaq.

mozaika

mədəniyyət

## Pianoçumuz beynəlxalq müsabiqənin qalibi olub



Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının I kurs tələbəsi, istedadlı pianoçu Fidan Mirheydərzadə Praqada beynəlxalq müsabiqənin qalibi olub.

Gənc pianoçunun müəllimi dosent Elnarə Kəbirlinskaya tələbəsinin uğuru barədə deyib: «Müsabiqəyə qısa zamanda hazırlaşdıq. Repertuara T.Quliyevin virtuoz əsəri olan «Qaytağı»nı da əlavə etdik. Əsər münsiflər heyəti və auditoriya tərəfindən maraqla qarşılandı və sevildi. Hətta əsərin notlarını da istədilər. Bu həm də musiqimizin beynəlxalq arenada daha bir təbliğidir».

Yenicə səfərdən qayıdan F.Mirheydərzadə isə təəssüratlarını belə bölüşüb: «Münsiflərin hər biri fərqli ölkələrdən idi. Odessadan olan münsif mənə yaxınlaşaraq repertuarımdakı Şopenin balladasını bəyəndiyini dedi. Müsabiqədə bir çox nominasiya üzrə rəqabət var idi. Mən pianoçular arasında qalib oldum və qala-konsertdə çıxış etdim. Bu, mənim beynəlxalq müsabiqədə ilk qalibiyyətimdir. Qarşıda yeni müsabiqələrə hazırlıq gedir. Qalibiyyətimin davamlı olması üçün çox çalışacağam».

texnologiya

## Şüşə tullantılarından batareya

Kaliforniya Universitetinin professorları Çingiz Ozkan və Mihri Ozkan elektrik nəqliyyat vasitələri və şəxsi elektronika üçün yüksək keyfiyyətli litium-ion batareyaları hazırlayıblar. Onlar batareyalar üçün nano silikon anod yaratmaq məqsədilə tullantı şüşə qablardan və ucuz kimyəvi proseslərdən istifadə ediblər.

Alimlərin sözlərinə görə, bu batareyalar elektrik və hibrid maşınlarının istifadəsini artıracaq, mobil telefon və dizüstü kiçik kompüterlərin (netbuk) az enerji yığmaqla daha çox istifadəsinə imkan yaradacaq.

Təbiət

## Hazır gül buketi



Spatifillum tropik Amerika bitkisi hesab edilir. Vəhşi təbiətdə kiçik çay və çay kənarlarında bataqlıq və rütubətli yerlərdə bitir. Bitki nəmli və rütubətli yerləri sevdiyinə görə, ona otaq şəraitində də oxşar şərait yaradılmalıdır. Onun evə xoşbəxtlik və sevgi gətirdiyini, qadınlara hədiyyə ediləndə isə özlərini çox xoşbəxt hiss etdiklərini deyirlər. Həmin xüsusiyyətlərinə görə bəzən onu «toy çiçəyi» də adlandırır və hesab edirlər ki, qadın xoşbəxtliyi üçün çiçək vacib əlamətdir. Çiçəkləmə dövründə bitkinin gücü daha da artır. «Xoşbəxtlik» enerjisi bəxş edən spatifillumun hədiyyə verilməsi yaxşı əlamət sayılır.

Botaniki adına görə spatifillum çiçəkli bitkilərə aid olub hamaşçiçək hesab edilir. Hamaşçiçəklər örtülü ağ çiçəklərdən və çiçək qıçasından ibarətdir. Örtülü formada olduğuna görə çiçəkləri yarpağı xatırladır. Bitkinin adı latın dilində həmin mənanı verir: «şpata» örtülü, «fillum» isə yarpaq deməkdir.

Rütubəti sevdiyinə görə onu ilboyu suvarmaq lazımdır, su püskürdülməsi, mamır və otaqda akvarium olması onun inkişafına yaxşı təsir göstərir. Günəş işığı olmayan, son dərəcə zəif işıqlandırılan yerdə saxlanılmalıdır, yay günləri bol günəş işığı alanda onun çiçək açması üçün şərait yaranmır.

Bitkinin digər bir xüsusiyyəti də budaqsız olmasıdır. Yarpaq və çiçək saplağı birbaşa kökdən çıxır. Dibçəkdə ağ, bir az da cüzi yaşıl rəngə çalan spatifillum çiçəkləri hazır gül buketidir.

aktual

## Keyfiyyətsiz eynəklər sağlamlığa ziyandır

Eynəklərdən görmə pozğunluğunu aradan qaldırmaq, gözlərin daha yaxşı görməsini təmin etmək, xarici təsirlərdən müdafiə etmək, elektromaqnit şüalanmalardan qorunmaq və ya sadəcə aksesuar məqsədilə istifadə olunur. Lakin bu zaman eynəklərin keyfiyyətinə ciddi fikir vermək lazımdır.

Keyfiyyətsiz eynəklər gözün bülluruna pis təsir edir, gələcəkdə kataraktanın yaranmasına səbəb olur, insan beynində yorğunluq yaradır, hətta şiş xəstəliyinin yaranmasına da yol açır. Eynək gözə düşməyəndə isə ilkin əlamətlər gözün qızarması, sulanması, quruması kimi mənfi hallarla özünü büruzə verir. Eynəyin rəngi tünd olanda isə göz bəbəyi genəlir və gözün dibinə düşən işıq sahəsi artır. Bu da gözün qıçıqlanmasına, iltihaba səbəb olur. Sonrakı prosesdə göz bülluru bulanır və görmə zəifləyir. Yaşa dolduqca keyfiyyətsiz gün eynəklərinin fəsadları daha qabarıq üzə çıxır və görmə üçün problemlər yaradır. Ona görə də eynəklərin ixtisaslaşmış mağazalardan alınması daha məsləhətlidir.

Eynək alarkən mütləq onun etiketinə diqqət yetirin. Nəzərə alın ki, gün eynəyinin etiketində ultrabənövşəyi şüaların hansı qisminin buraxılmaması göstərilir. Eynəyin təlimatında linzanın günəş şüalarını hansı dərəcədə - zəif, orta və ya güclü - udduğu da qeyd olunur. Həmçinin, eynəyin sertifikatına nəzər salmaq kifayətdir ki, onun saxta olub-olmadığını müəyyən etmək olsun. Nəzərə alın ki, eynəklər gigiyenik sertifikatı olduğu halda satılmalıdır.

Eynək alarkən, ilk növbədə, onun rənginə və çəkisinə fikir verilməlidir. Eynəklər nə tünd, nə də açıq rəngdə - yüngül, rahat və göz çuxuruna uyğun olmalıdır. O, həmçinin, qoruyucu xüsusiyyətə malik, gün şüalarını qıran, gözü qamaşdırmayan, gözləri rahatladan və onlara istirahət verməlidir. Eynəyin şüşəsi cızıldığı zaman o, öz keyfiyyətini itirir. Belə ki, cızılmış yerlərdən ultra-bənövşəyi şüalar gözə təsir edir.



ekologiya

## Qışda isti, yayda sərin...

ABŞ-ın «Formworks Buildings Inc» memarlıq kompaniyası ekoloji cəhətdən təmiz evin layihəsini hazırlayıb. Layihəyə görə, 2 mərtəbəli qeyri-adi evin arxa divarları yoxdur və tamamilə torpağın içərisindədir.

Memarların fikrincə, enerji effektivliyinə malik bina istənilən havaya dözümlüdür. Yuxarıdan 1 metrlik, yanlardan isə 7,5 metr torpaq qatı ilə örtülmüş ev gözəl izolyasiyanı təmin edir. 300 kvadratmetr sahəyə malik evdə 3 yataq və qonaq otağı, vanna otağı, mətbəx və yardımçı otaqlar var.

İstiliyə görə aylıq ödəniş 150 dollardır ki, bu da digər evlərlə müqayisədə 90 faiz azdır. Belə evlərdə qışda isti, yayda isə sərin olur.

## Dünyanın ən çirkli yeri

Sakit Okeanda yerləşən və sahəsi cəmi 3,7 hektar olan kiçik Henderson adası dünyanın ən çirkli yeri sayılıb. Bu barədə məlumatı Tasmaniya Universitetinin (Avstraliya) tədqiqatçılarına istinadla «The Guardian» yayıb. Alimlər Henderson adasında ümumi çəkisi 17,6 ton olan təqribən 38 milyon plastik kütlə parçası aşkarlayıblar. Çirklənmənin sıxlığı hər kvadratmetrə təxminən 670 belə zibil parçası təşkil edib. Üstəlik, adanın çimərliyi hər gün daha da zibillənir.

Tasmaniya Universitetinin Dəniz və Antarktida Tədqiqatları İnstitutunun mütəxəssisi Cenifer Lavers deyib: «Mən və həmkarlarım güman edirdik ki, adanın uzaqda yerləşməsi onun təmiz qalmasını təmin edəcək. Ancaq biz çox yanılmışıq. Adada köhnə, kövrək, iti və zəhərli plastik zibil qalaqlarını gördük. Onların üzərində kosmetika qablarında özlərinə yuva qurmuş krablar sürünürdü. Bunu sənədləşdirmək qərarına gəldik».

C.Lavers vurğulayıb ki, sivilizasiyadan uzaqda yerləşən kimsəsiz adanın vəziyyəti göstərir ki, hazırda plastik material «heyrətamiz» sürətlə istehsal olunur və hətta insan ayağı dəyməyən yerləri də çirkləndirir.

**Müdriklər deyib ki...**



***«Nəsihət vermək asan, nümunə olmaq isə çətindir».***

***Fransua de Laroşfuko (1613 - 1680)***